**Azərbaycandakı islahatlar ABŞ radiosunun diqqət mərkəzində**



Bax 6

**Bakı dünya güclərinin ənənəvi mərkəzi rolunda**



Bax 8

**Azərbaycan xarici investorlar üçün çox cəlbedici məkandır**



Bax 5



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!


Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 024 (5989) 7 fevral 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


## Prezident İlham Əliyev: "Müasir infrastrukturun yaradılması bizim hökumətin ən əsas məqsədlərindən biridir"



Bax 3

# İnkişaf və tərəqqi yollardan başlayır

## "İnsana tükənməz qayğı, onun həyat şəraitinin yaxşılaşdırılması Azərbaycan hakimiyyətinin əsas qayəsini təşkil edir"

Bax 4



*"Fevral ayının 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev əmək pensiyalarının artırılması ilə əlaqədar sərəncam imzaladı. Sərəncama əsasən yanvar ayının 1-dən etibarən bütün əmək pensiyalarının 16,6 faiz artırılması nəzərdə tutulur. Etiraf etmək lazımdır ki, pensiyaların ciddi şəkildə, qeyd edildiyi kimi 16,6 faiz artırılması əhalinin böyük bir kateqoriyasının, təxminən 1,2 milyon insanın ailə büdcəsinə əhəmiyyətli əlavədir...*

Bax 16

Bax 5




## Azərbaycan Dördüncü Sənaye İnqilabında lider olmağı hədəfləyir

Hazırda dünya iqtisadiyyatı Dördüncü Sənaye İnqilabına qədəm qoyub. Bu, özündə rəqəmsallaşmanı, texnologiyaların birləşməsini və fiziki, rəqəmsal və bioloji sferalar arasında sərhədlərin aradan qalxmasını səciyyələndirir.

## İranın Ermənistanla bağlı səyləri əbəsdir

Bax 12



Beynəlxalq aləmdə siyasi nüfuzunun artması, iqtisadi yüksəlişi, regionda reallaşdırdığı layihələr, ümumiyyətlə, aparılan düzgün siyasət Azərbaycanı söz sahibinə çevirib. Birmənalı şəkildə demək olar ki, indi ölkəmiz sözün əsl mənasında regionun lider dövlətidir. Çünki Azərbaycanın iqtisadi yüksəlişi, artan imkanları digərləri ilə müqaisə edilməyəcək dərəcədədir və məhz bu baxımdan daha üstün mövqelərə malikdir...

## Klopp Qvardiolanı "taxt"dan saldı



Bax 16

*Yurgen Klopp yanvar ayı üçün İngiltərə Premyer Liqasının ən yaxşı məşqçisi seçilib. Bu haqda Premyer Liqanın rəsmi saytı məlumat yayıb. O, səsvermədə Xosep Qvardiola ("Mançester Siti") , Ralf Hazenhyuttl ("Sauthempton") və Neycel Pirsonu ("Utford") qabaqlayıb. Bu, Kloppun hazırkı mövsümdə beşinci mükafatıdır.*

## "Forbes" Yaxın Şərqin 100 ən yaxşı işgüzar qadınını açıqladı



Nüfuzlu "Forbes" jurnalı 2020-ci ildə Yaxın Şərqin 100 ən yaxşı işgüzar qadınının adını açıqlayıb. Bu regionda zərif cinsin ən varlı nümayəndələri 28 sektoru...

**Azərbaycan inkişaf, sabitlik yolu ilə gedir**



Bax 7

**"Yüksəliş" müsabiqəsinin qalibləri dövlət qulluğuna imtahansız qəbul ediləcəklər**



Bax 6

**"Qətnamə AŞPA-da böhran yaşandığından xəbər verir"**



Bax 10

# İnkişaf və tərəqqi yollardan başlayır

*Prezident İlham Əliyev: "Müasir infrastrukturun yaradılması bizim hökumətin ən əsas məqsədlərindən biridir"*



***Prezident İlham Əliyev fevralın 5-də "Balakən rayonunun Yevlax-Zaqatala-Gürcüstanla dövlət sərhədi (155 km)-Qullar-Tülü-Talalar-Şərif-Acılıqbinə-Qaysa avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalayıb. Dövlət başçısının mütəmadi olaraq, nəinki avtomobil yollarının, həmçinin digər sahələrin də inkişaf etməsin vəsaiti ayırır. Qeyd etdiyimiz növbəti Sərəncam da bunun təsdiqidir. Budur, Prezident İlham Əliyevin ən böyük amalı. Ötən 16 ildə bir sıra qabaqcıl ölkələrin onilliklər boyu keçdiyi inkişaf mərhələlərini sürətlə adlayan Azərbaycan azad və mütərəqqi düşüncə tərzinin diktə etdiyi bazar iqtisadiyyatı, demokratiya və vətəndaş cəmiyyəti quruculuğu yoluna sadiqliyini sübuta yetirmişdir.***

Dövlət başçısının gerçəkləşdirdiyi uğurlu diplomatiya yeni əsrdə Azərbaycanın bölgədə və dünyada layiqli yerini tutmasını, regional liderliyini təmin etmişdir. Ümumiyyətlə, son 16 il ölkə həyatı üçün, o cümlədən yol infrastukturu sahəsində böyük uğurlar əldə olunub.

Bu gün Azərbaycanda dövlət büdcəsi hesabına ən müasir yol infrastrukturu qurulur və irimiqyaslı layihələr icra olunur. İndi istər paytaxt Bakıda, istərsə də bölgələrdə uzanan müasir yollar, ümumilikdə, ölkə əhalisinin təhlükəsizliyini və rahatlığını təmin etməklə yanaşı, regionların sosial-iqtisadi inkişafına da təsir göstərir. Azərbaycan Prezidentinin Sərəncam və göstərişlərinə əsasən, ölkəmizin hər yerində - paytaxtımızda, eləcə də, regionlarda kənd və qəsəbələri birləşdirən yolların, həmçinin, yaşayış məntəqələrinin daxili yollarının təmirinə və yenidən qurulmasına ayrılan diqqətin nəticəsidir ki, avtomobil yol şəbəkəsi genişlənir, infrastruktur təzələnir və müasirləşir. Dövlətimizin başçısının tapşırıq və göstərişlərinə əsasən, beynəlxalq əhəmiyyətli yolların inşası ilə yanaşı, yeni kənd yollarının çəkilməsi, mövcud yolların yenidən qurularaq, müasir səviyyəyə çatdırılması istiqamətində də çox mühüm layihələr icra olunub.



### Son 16 ildə ölkə ərazisində 16 min 700 km yol salınıb

Dünyanın 141 ölkəsi arasında belə yüksək nəticənin əldə olunması son illər Prezident İlham Əliyevin rəhbərliyi altında uğurla aparılan yol infrastrukturunun genişləndirilməsi və təkmilləşdirilməsi işlərinin məntiqi nəticəsidir.

Bu günlərdə DAVOS İqtisadi forumunda 14-cü dəfə iştirak edən Azərbaycan Prezidenti İlham Əliyev keçirdiyi görüşlərdə müxtəlif sferalara, o cümlədən, tranzit potensialının reallaşdırılmasına, iqtisadiyyatın müxtəlif sahələrində, xüsusən enerji sahəsində qlobal əhəmiyyətli layihələrin icrasına aid məsələləri müzakirəsi zamanı Azərbaycanda kənd təsərrüfatı, nəqliyyat, infrastruktur, digər sahələrdə layihələrin həyata keçirilməsi ilə bağlı əməkdaşlıq üçün yaxşı perspektivlərin olduğunu vurğulayıb. Prezident ölkəmizdə inkişafın yeni mərhələsində həyata keçirilən iqtisadi islahatlardan söz açıb. Onların əsas məzmunu, mahiyyəti və məqsədləri barədə geniş fikir mübadiləsi aparıb. Bu sırada informasiya-kommunikasiya texnologiyalarının tərəqqisinin prioritet sahələrdən biri olduğunu dövlət başçısı ayrıca vurğulayıb.

Bu məqamı xüsusi olaraq vurğulamaq istərdik ki, şirkət rəhbərləri Azərbaycanda reallaşdırılan islahatların əsl mahiyyətini yaxşı anlayırlar. Əslində, bu məsələ "Bir kəmər, bir yol" təşəbbüsünün inkişaf etdirilməsi: Çinin trilyon dollarlıq baxışı" adlı sessiyada öz konkret ifadəsini tapıb. Belə ki, müasir infrastrukturun yaradılması ilə bağlı verilən sualı Prezident İlham Əliyev lakonik cavablandırıb.

Dövlət başçısı ifadə edib: "Müasir infrastrukturun yaradılması bizim hökumətin ən əsas məqsədlərindən biridir. Düşünürəm ki, biz coğrafi vəziyyətimizdən faydalanaraq əsasən infrastruktura, yəni, daxili infrastruktura və Azərbaycanın beynəlxalq hablardan birinə çevrilməsinə imkan verəcək infrastruktura sərmayə yatırmaqla doğru iş görmüşük".

Prezident İlham Əliyev deyir ki, yol mədəniyyət, rahatlıq, müasirlikdir, həm də ölkənin səviyyəsini göstərir. Bu sözlərlə yolun insanların, ölkənin həyatında oynadığı müstəsna rolun əhəmiyyətini diqqətə çatdıran dövlət başçımız öz səmərəli fəaliyyəti ilə hər bir Azərbaycan vətəndaşına açıq, rahat və müasir yol şəbəkəsi təqdim edir. Bu işlərin icrası həm də onu nümayiş etdirir ki, Azərbaycanda bütün sosial layihələr uğurla icra olunur. Bu isə, dövlətimizin həyata keçirdiyi məqsədyönlü siyasətin nəticəsidir.





Bir sözlə, Azərbaycan xalqını uğurlu gələcəyə aparan bu siyasət növbəti illərdə də davam etdiriləcək, respublikamız Prezident İlham Əliyevin rəhbərliyi ilə gələcəyə doğru inamla addımlayacaq, qabaqcıl dövlətlər arasında layiqli yerini tutacaq.

**RƏFİQƏ KAMALQIZI**

# Azərbaycan xalqının AŞPA-ya olan ümidləri çoxdan bitib

## *Prezident İlham Əliyev: "Azərbaycan istənilən vaxtı bu qurumdan çıxa bilər"*



***Bu günlərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Xarici İşlər naziri Mövlud Çavuşoğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edədərkən çıxışında Avropa Şurasını sərt tənqid edib. Prezident İlham Əliyev Avropa Şurasında illərdən bəri deqradasiya prosesi getdiyini bildirib: "Bu təşkilat beynəlxalq müstəvidə öz əhəmiyyətini itirməkdədir. Təşkilat dünyada gedən proseslərə heç bir təsir etmək gücündə deyil. Təşkilatın nüfuzu çox aşağı düşüb və bunun yəqin ki, başlıca səbəbi təşkilatda hökm sürən riyakarlıq, ikili standartlar və ədalətsizlikdir".***

Dövlət başçısı 20 il ərzində Azərbaycan xalqı haqqında yalanlar uydurduğuna görə AŞPA-ya olan inamının itdiyini qeyd edib: "Sözün düzü, Azərbaycan xalqı bu təşkilata olan ümidlərini çoxdandır ki, itirib. Çünki təxminən 20 il ərzində müxtəlif dövrlərdə siyasi sifarişi icra edərkən Azərbaycan hədəf seçilibdir, bizim haqqımızda olmayan yalanlar uydurulur, yayılır. Azərbaycan sanki geridə qalmış bir ölkə kimi təqdim edilir, Azərbaycanda gedən müsbət proseslər qeydə alınmır. Azərbaycanı ancaq qara rənglərlə boyamağa çalışırlar və yenə də əsassız, saxta məlumat əsasında məruzələr dərc olunur və qətnamələr qəbul edilir. Sanki Azərbaycanda siyasi məhbuslar var, sanki Azərbaycanda demokratik prosesə əngəl törədilir. Bütün bunlar hamısı yalandır, Azərbaycanda siyasi məhbus yoxdur, biz bunu yaxşı bilirik. Ancaq o yerlərdə ki, siyasi məhbuslar var, o ölkələr diqqətdən kənarda qalır".

Prezident İlham Əliyev AŞPA-nınnı ikili standartlara söykəndiyini, əslində, Azərbaycannın ünvanına dediyi yalan informasiyaların həqiqətən də, Ermənistanda baş verdiyini bildirmirlər: "Mən Ermənistanı misal gətirə bilərəm. Ermənistanın keçmiş prezidenti bir ildən çoxdur ki, həbs olunub, o prezident fəal siyasətlə məşğul olmaq haqqında öz sözünü deyəndən sonra həbs olunub və bir ildən çoxdur ki, həbsxanada saxlanılır. İki il bundan əvvəl Ermənistana rəhbərlik edən prezident də indi istintaq altındadır. Onun haqqında cinayət işi açılıbdır və mətbuatda yayılan məlumata görə onun işi məhkəməyə verilibdir. Bunun da başlıca səbəbi keçmiş prezidentlərin indiki iqtidarın fəaliyyətini tənqid etmələridir. Ermənistanda jurnalistlər həbs olunur. Mənə verilən məlumata görə, bu yaxınlarda bir media orqanının rəhbəri həbs olunub. Bir neçə ay bundan əvvəl bir jurnalist həbsxanada aclıq aksiyasına başlayaraq aclıqdan vəfat edib. Ancaq bu faktların heç biri Avropa Şurasında qeydə alınmır. Nə üçün? Nə üçün Ermənistana qarşı bir münasibət var, Azərbaycana, Türkiyəyə qarşı başqa münasibət? Biz bu sualın cavabını yaxşı bilirik və bir daha qeyd etmək istəyirəm, yaxşı olardı ki, Avropa Şurası bu məsələlərlə məşğul olsun".

Eyni zamanda, Gürcüstanda sabiq müdafiə naziri İrakli Okuraşvili 2019-cu il iyunun 11-də "Qalib Gürcüstan" siyasi hərəkatını yaradıb, həmin ayın 20-21-də Tbilisidə baş verən hadisələr zamanı kütləvi zorakılığın təşkili, ona rəhbərlik və iştirak etməkdə ittiham olunaraq iyulun 27-də həbs edilib. 2019-cu ildə Gürcüstanın müxalif "Qalib Gürcüstan" siyasi hərəkatının liderlərindən olan Quram Çalaqaşvili həbs edilib, 2017-ci ildə sabiq prezident Mixeil Saakaşviliyə qarşı cinayət işi açılıb və digər faktlar mövcuddur. Və yaxud 2019-cu ilin mayında Ukraynanın Dövlət İstintaq Bürosu sabiq prezident Petro Poroşenkoya qarşı dövlətə xəyanət maddəsi üzrə cinayət işi açıb. Görəsən digər ölkələrdə olan bu və digər çoxsaylı faktlar Avropa Şurasında niyə qeydə alınmır, müzakirəyə çıxarılmır, qətnamələr qəbul olunmur?

Sözsüz ki, bütün bunlara, ikili standartlar, riyakarlıq, qərəz, daimi təhdid siyasətinin yürüdülməsinə görə Azərbaycan artıq nüfuzdan düşmüş və deqradasiyaya uğramaqda olan bu təşkilatın qərarlarına heç bir əhəmiyyət vermir. AŞPA-da səslənən qərəzli və uydurma iddiaların heç birini qəbul etmir və heç bir dırnaqarası tələbi icra etmək niyyətində deyil. Çünki Azərbaycan müstəqil dövlətdir, heç kimdən asılı olmayan, xalqın iradəsinə əsaslanan müstəqil siyasət yürüdür, heç vaxt təzyiq və təhdid dilini qəbul etməyib və bundan sonra da öz prinsipial mövqeyində qalacaq.

### AŞPA-nın nə üzv dövlətə, nə də özünə hörməti yoxdur!

Göründüyü kimi, AŞPA yalnız Azərbaycanı hədəfə götürür və digər ölkələrdə baş verənləri araşdırmır. Yəni burada qərəzin mövcudluğu göz önündədir. Başqa ölkələri kənara qoyub, onların əməllərinə göz yummaq, hüquqda, beynəlxalq qanunvericilikdə olmayan "siyasi məhbus" terminini yalnız bir ölkəyə şamil etmək, digər ölkələrə gəldikdə isə bu terminin yerinə "azadlıqdan məhrum olunmuş insanlar" ifadəsini işlətmək məhz bu təşkilatın qeyri-ciddiliyini sərgiləməkdədir. Özü də seçkiərəfəsi AŞPA-nın "siyasi məhbus" hoqqabazlığı və dağıdıcı müxalifətin indi də bu hoqqabazlıqlarını seçki oyunbazlıqlarının gözünə qatmaq istəyi... Məqsəd bəllidir... Məqsəd, Azərbaycandakı cüzi problemləri süni şəkildə böyütmək, regionun digər dövlətlərində olan böyük problemləri isə cüzi məsələ kimi qələmə verməkdir.

Dövlət başçısı bu gün bu təşkilatın heç bir nüfuza malik olmadığını və qəbul etdikləri qərarların da tamamilə əhəmiyyətsiz olduğunu da deyib: "Azərbaycanla bağlı qəbul edilmiş son qətnamə bizim üçün heç bir əhəmiyyət kəsb etmir və bu qətnamənin bizim üçün dəyəri bir kağız parçasından artıq deyil. Orada səslənən uydurma ittihamların heç birini biz qəbul etmirik və onların heç bir dırnaqarası tələbini icra etməyəcəyik. Bizim işimiz isə haqq işidir. Türkiyə bu gün dünya miqyasında güc mərkəzidir və biz buna çox sevinirik. Türkiyənin bütün uğurları bizim üçün də çox əhəmiyyətlidir, bizə ruh verir. Biz birlikdə böyük işlər görmüşük və həmişə haqqın, ədalətin yanında olmuşuq. Əminəm ki, bundan sonra da belə olacaq. Heç bir kənar qüvvə nə Türkiyəyə, nə Azərbaycana təsir edə bilməz".

### Məntiq tükənən yerdə böhtan başlayır...

Bu, həqiqətən də, belədir: məntiq tükənən yerdə AŞPA-nın sevimli məşğuliyyətinə çevrilən böhtan və uydurmalırı başlayır. Və Azərbaycan Prezidentinin dediyi kimi, Aərbaycanla bağlı qəbul edilmiş qətnamələr heç bir əhəmiyyət kəsb etmir və bu qətnamənin dəyəri bir kağız parçasından artıq deyil: "Orada səslənən uydurma ittihamların heç birini biz qəbul etmirik və onların heç bir dırnaqarası tələbini icra etməyəcəyik!"

Artıq izaha ehtiyac yoxdur. Bu, həqiqətən, AŞPA üçün çox ciddi ittihamdır və qurum onu həzm etməyə hazırdırmı?

**RƏFİQƏ KAMALQIZI**

# Əli Əhmədov: “İnsana tükənməz qayğı, onun həyat şəraitinin yaxşılaşdırılması Azərbaycan hakimiyyətinin əsas qayəsini təşkil edir”

***“Fevral ayının 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev əmək pensiyalarının artırılması ilə əlaqədar sərəncam imzaladı. Sərəncama əsasən yanvar ayının 1-dən etibarən bütün əmək pensiyalarının 16,6 faiz artırılması nəzərdə tutulur. Etiraf etmək lazımdır ki, pensiyaların ciddi şəkildə, qeyd edildiyi kimi 16,6 faiz artırılması əhalinin böyük bir kateqoriyasının, təxminən 1,2 milyon insanın ailə büdcəsinə əhəmiyyətli əlavədir. Cəmi bir neçə ay bundan əvvəl pensiyaların minimum həddinin 70 faizdən çox artırılmasını da nəzərə alsaq pensiyaçıların həyat şəraitinin yaxşılaşdırılmasına Prezident İlham Əliyevin birbaşa göstərişi ilə dövlət tərəfindən göstərilən diqqətin və dəstəyin miqyasını təsəvvür etmək mümkündür”. Bu fikirləri Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov özünün facebook səhifəsində paylaşdığı “Pensiyaçılara böyük hədiyyə” sərlövhəli məqaləsində qeyd edib.***



Əli Əhmədov bildirib ki, pensiyaların nəzərəçarpan dərəcədə artırılması ilə əlaqədar sərəncam hər şeydən əvvəl Prezident İlham Əliyevin bəyan etdiyi “siyasətimizin mərkəzində Azərbaycan insanı dayanır” prinsipinin növbəti əyani təcəssümü sayıla bilər. İnsana tükənməz qayğı, onun həyat şəraitinin yaxşılaşdırılması Azərbaycan hakimiyyətinin əsas qayəsini təşkil edir və məhz elə bu səbəbdən də xalqla hakimiyyətin qırılmaz vəhdəti deyilən fenomen meydana çıxmışdır.

Baş nazirin müavini vurğulayıb ki, Prezidentin sərəncamı ilə pensiyaların əhəmiyyətli dərəcədə artırılması xüsusunda qeyd olunmalı digər vacib cəhət ondan ibarətdir ki, sözügedən təşəbbüs mahiyyət etibari ilə ölkədə həyata keçirilən iqtisadi və sosial islahatların həm nəticəsi, həm də mühüm komponentidir. Əhalinin rifahının yaxşılaşdırılmasının ölkədə həyata keçirilən islahatların əsas məqsədi olduğunu sübuta yetirməyə ehtiyac yoxdur. Lakin haqqında söhbət açdığımız 6 fevral sərəncamının ölkədə həyata keçirilən islahatların birbaşa nəticəsi olduğu ayrıca vurğulanmalıdır. Artıq bəyan edildiyi kimi, pensiyaların 16.6 faiz artırılması il ərzində 500 milyon manatdan çox vəsait tələb edir və bu vəsait Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nəzdində Dövlət Sosial Müdafiə Fondu Xidmətinin imkanları hesabına qarşılanacaq. Ayrıca qeyd etmək istədiyimiz də məhz elə bundan ibarətdir. Ölkədə uğurla həyata keçirilən islahatlar yeni iş yerlərinin açılması, əmək haqlarının hiss olunan miqyaslarda artması, qeyri-formal məşğulluğun aradan qaldırılması, bütün sahələrdə əmək və maliyyə intizamının gücləndirilməsi ilə müşaiyət olunur. Qeyd olunan pozitiv proseslərin hər biri isə öz növbəsində dövlətin maliyyə imkanlarını artırmaqla əhalinin müxtəlif kateqoriyalarının, o cümlədən pensiyaçıların həyat şəraitinin yaxşılaşdırılmasına yönəlmiş siyasətin reallaşmasını mümkünləşdirir. Başqa sözlə deyilsə, əhalinin rifahının yaxşılaşdırılması öz təcəssümünü Azərbaycan hökumətinin yalnız bəyanatlarında deyil, real fəaliyyətində və onun nəticəsində tapır. Pensiyaların 16.6 faiz artırılması Prezident İlham Əliyevin elan etdiyi islahatlar konsepsiyasının uğurla həyata keçirildiyini təsdiq edən ən tutarlı dəlil kimi qiymətləndirilməlidir. Xalq bir neçə il əvvəl elan edilmiş və bu gün də davam etdirilən genişmiqyaslı islahatların bəhrələrini artıq görür və inanır ki, islahatların getdikcə daha inamla həyata keçirilməsi əhalinin rihafını bundan da artıq yaxşılaşdırmaq imkanı yaradacaq.

“Bu yerdə Azərbaycana, onun uğurlu siyasətinə qara yaxmağa çalışan, yalan və manipuliyasiyalarla insanların fikirlərini dəyişdirməyə can atan məkrli xarici qüvvələri və nüfuzdan düşmüş radikal müxalifətin anti-Azərbaycan təbliğatını xatırlamağa dəyər. Daha doğrusu, onlara xatırlatmaq lazımdır ki, təxminən son yarım il ərzində təkcə pensiyaların artırılması sahəsində iki möhtəşəm sosial layihə həyata keçirilib: ötən il minimum pensiyalar 70 faizdən çox, bu il isə bütün əmək pensiyaları 16.6 faiz artırılmışdır. Lakin biz dünyanın bir çox regionlarında Azərbaycanda pensiyaların və əmək haqlarının əhəmiyyətli şəkildə artırılmasının tam əksini təşkil edən mənzərə ilə rastlaşırıq. Avropanın mərkəzində bir ildən çox davam etməkdə olan məşhur sarı jiletlər hərəkatı pensiya təminatının pisləşməsinə etiraz kimi meydana gəlib və bu günə qədər aktuallığını itirməyib. Avropanın başqa bir ölkəsində bir neçə il əvvəl hökumət pensiyaların azalması kimi qeyri-populyar qərar qəbul etmək zorunda qaldığından dəfələrlə kabinet dəyişikliklərindən yan keçə bilməyib, ciddi iqtisadi və siyasi böhran mərhələsini yaşamağa məhkum olmuşdur.

Nümunələri artırmaq olar. Lakin buna ehtiyac duymuram, çünki məqsədim hansısa ölkələri tənqid etmək deyil. Görünən odur ki, Azərbaycanın sürətli sosial-iqtisadi inkişafı radikal müxalifəti həddindən artıq narahat edir, onların siyasi perspektivlərinin üstündən xətt çəkir, əhali arasında nüfuzunu heçə endirir. Bu səbəbdən də onlar sağlam olmayan siyasi ambisiyalarını həyata keçirmək naminə ən çirkin üsullara əl atır, anti-Azərbaycan qüvvələrlə birləşir, onların əlaltısına çevrilir. Bir sözlə, Azərbaycanın yüksəlişə doğru möhtəşəm addımları düşmənlərimizin və radikal müxalifətin yuxusunu qaçırıb.

Heç şübhəsiz, Azərbaycanın uğurları xalqımızın qürur mənbəyidir. Digər tərəfdən, ölkəmiz dünya birliyinin bir parçasıdır və onun inkişafı həm də bütünlükdə dünyanın inkişafı, bəşəri tərəqqiyə layiqli töhfədir. Elə buna görə də, bütün mötəbər reytinqlərdə Azərbaycanın inkişafı özünün layiqli yerini tutur. Vaxtilə Ümummilli Lider Heydər Əliyevin peyğəmbərcəsinə dediyi “Azərbaycan dünyaya günəş kimi doğacaq” fikirləri artıq reallığa çevrilib. Ölkəmiz dünyanın ən uğurlu dövlətləri sırasında layiqli yerlərdən birini tutur. Buna sevinmək, bununla qürur duymaq lazımdır”-deyə, Əli Əhmədov vurğulayıb.

# Azərbaycanda həyata keçirilən islahatlar ölkədə siyasi dəyişikliklərlə müşayiət olunur

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) eksperti Vasif Hüseynovun Xəzər və Qara Dəniz Təhlil Fonduna (CCBS) məxsus nəşrdə “Növbədənkənar parlament seçkiləri: Azərbaycanda siyasi dəyişikliklərin həlledici mərhələsi” adlı məqaləsi dərc edilib.



06 February 2020 / 18:29

CCBS
Caspian, Caucasus and Black Sea

**Snap Parliamentary Elections: Critical Stage of Azerbaijan’s Political Transformation**

**Vasif Huseynov**

In Azerbaijan, the energy-rich South Caucasian country, reform has become a popular buzzword since a few months. The word remained in the headlines of the local media throughout the whole year of 2019 and even, thanks to groundbreaking government reshufflings, started to be more heatedly debated towards the end of the year. The government proudly praises the accomplishments has been achieved in the course of this process, though for the critics there are still some shortcomings to be addressed. Nevertheless, despite the deficiencies, there is a fact that the country has been through an economic and political transformation, the next stage of which constitutes the snap parliamentary elections, scheduled to be held on 9 February 2020.

BMTM-dən AZƏRTAC-a bildirilib ki, məqalədə fevralın 9-da keçiriləcək parlament seçkiləri 2019-cu ildə islahatlarla səciyyələnən iqtisadi və siyasi keçid dövrünün yeni mərhələsi kimi qiymətləndirilir.

Qeyd olunur ki, son illərdə ölkəmizdə həyata keçirilən islahatlar, iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafına yönəlmiş tədbirlər bir sıra siyasi dəyişikliklərlə müşayiət olunur. Bu dəyişikliklər fonunda ölkədə ümumilikdə siyasi transformasiya mühiti yaranıb. Belə ki, islahatlar prosesində yaşlı kadrların gənc və əsasən Qərb təhsilli kadrlarla əvəzlənməsi, korrupsiyada ilə mübarizə tədbirlərinin gücləndirilməsi həm ölkə daxilində, həm də beynəlxalq müşahidəçilər tərəfindən yüksək qiymətləndirilir.

Məqalədə bildirilir ki, genişmiqyaslı siyasi islahatlar, həmçinin gəncləşmə siyasəti insanların siyasi proseslərə marağını artırmaqla yanaşı, qarşıdan gələn seçkilərə də inam formalaşdırıb. Qeydə alınan namizədlərin və yerli seçki müşahidəçilərinin rekord sayı ölkədə hökm sürən siyasi fəallığın digər bir göstəricisidir. Ümumilikdə, bütün partiyalardan olan və bitərəf namizədlər qanunvericilikdə söz sahibi olmaq üçün seçki kampaniyalarını səylə həyata keçirdiyi qeyd olunan məqalədə, həmçinin vurğulanır: “Bütün bunları nəzərə alsaq, qarşıdan gələn seçkilərin Azərbaycanın siyasi transformasiyasında həlledici rol oynayacağı şübhəsizdir”.

# Elmar Məmmədyarov MDB müşahidə missiyasının rəhbəri ilə görüşüb



Xarici İşlər naziri Elmar Məmmədyarov MDB müşahidə missiyasının rəhbəri və MDB icraçı katibinin birinci müavini Viktor Quminskinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Viktor Quminski Azərbaycanda keçiriləcək parlament seçkilərinin müşahidə edilməsi barədə məlumat verərək, 252 nəfərdən ibarət MDB müşahidə missiyasının bütün ölkə ərazisi üzrə seçkiləri müşahidə edəcəyini diqqətə çatdırıb. O, seçki məntəqələrinin seçkilərə tam hazır olduğunu, seçkilərin azad, demokratik, ədalətli və şəffaf şəkildə keçirilməsi üçün bütün lazımi şəraitin yaradıldığını qeyd edib.

Elmar Məmmədyarov öz növbəsində, ümumiyyətlə, ölkədə seçki prosesinin sərbəst və demokratik mühitdə keçdiyini qeyd edərək, bütün yerli və xarici müşahidəçilərin, o cümlədən MDB-nin müşahidə missiyasının fəaliyyəti üçün hər cür imkanların yaradıldığını bildirib. Görüş zamanı, həmçinin MDB ölkələri daxilində iqtisadi-ticari, siyasi, humanitar və digər sahələrdə sıx əməkdaşlıq və MDB məkanında qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsi məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

# İrəvanda bir məktəbdə on şagird “donuz qripi”nə yoluxub

Ermənistanın paytaxtı İrəvanda bir məktəbdə on şagirdin “donuz qripi”nə yoluxduğu məlum olub. APA xəbər verir ki, A. Puşkin adına 8 nömrəli məktəbin direktoru Natalya Stepanyan bildirib ki, 10-dan artıq şagirddə A tip H1N1 (“donuz qripi”) virusu aşkarlanıb.

Direktor bunun son rəqəm olmadığının ehtimal edildiyini də deyib. Onun sözlərinə görə, heç də bütün valideynlər tibbi arayış gətirməyiblər. Uşaqların dərsə davamiyyəti isə son günlər çox aşağı düşüb.

***Hazırda dünya iqtisadiyyatı Dördüncü Sənaye İnqilabına qədəm qoyub. Bu, özündə rəqəmsallaşmanı, texnologiyaların birləşməsini və fiziki, rəqəmsal və bioloji sferalar arasında sərhədlərin aradan qalxmasını səciyyələndirir. Azərbaycan da Dördüncü Sənaye İnqilabına ən yaxşı hazırlaşan ölkələrdən biri olmaq niyyətindədir. Artıq bu istiqamətdə mühüm addımlar atılır. Bu il yanvarın 21-də Prezident İlham Əliyevin Davosda Dünya İqtisadi Forumunun prezidenti Borge Brende ilə görüşündə Forumun ölkəmizdə regional mərkəzinin yaradılması ilə bağlı niyyət protokolu imzalanıb.***




# Azərbaycan Dördüncü Sənaye İnqilabında lider olmağı hədəfləyir

*Dünya İqtisadi Forumunun Bakıda regional mərkəzinin yaradılması Prezident İlham Əliyevin iradəsi ilə bağlıdır*

Belə mərkəzlər çox məhdud sayda ölkələrdə yaradılır və onların əsas məqsədi isə Dördüncü Sənaye İnqilabının səbəb olduğu çağırış və imkanların həyata keçirilməsidir.

Hazırda dünya iqtisadiyyatı Dördüncü Sənaye İnqilabına qədəm qoyub. Bu, özündə rəqəmsallaşmanı, texnologiyaların birləşməsini və fiziki, rəqəmsal və bioloji sferalar arasında sərhədlərin aradan qalxmasını səciyyələndirir. Azərbaycan da Dördüncü Sənaye İnqilabına ən yaxşı hazırlaşan ölkələrdən biri olmaq niyyətindədir. Artıq bu istiqamətdə mühüm addımlar atılır. Bu il yanvarın 21-də Prezident İlham Əliyevin Davosda Dünya İqtisadi Forumunun prezidenti Borge Brende ilə görüşündə Forumun ölkəmizdə regional mərkəzinin yaradılması ilə bağlı niyyət protokolu imzalanıb.

Belə mərkəzlər çox məhdud sayda ölkələrdə yaradılır və onların əsas məqsədi isə Dördüncü Sənaye İnqilabının səbəb olduğu çağırış və imkanların həyata keçirilməsidir.

Prezident İlham Əliyev Bakıda regional mərkəzin yaradılmasını əlamətdar hadisə, Azərbaycanın növbəti uğuru kimi səciyyələndirərək deyib: “Ölkəmizin əhəmiyyətini, rolunu və bizə olan münasibəti əks etdirən son hadisə Davos Ümumdünya İqtisadi Forumu çərçivəsində Davos Forumu ilə Azərbaycan arasında Dördüncü Sənaye İnqilabı üzrə Bakıda regional mərkəzin yaradılması hadisəsidir. Bu, çox əlamətdar hadisədir. Çünki Davos Ümumdünya İqtisadi Forumu dünyada birnömrəli Forumdur, bundan yuxarı yoxdur. Bu, həm siyasi, həm iqtisadi sahədə nömrə birdir və bu bölgədə, Cənubi Qafqazda, Orta Asiyada Azərbaycanı mərkəz kimi seçmək, əlbəttə, böyük hadisədir, mən və Forumun prezidenti niyyət protokolunu imzaladıq, indi işlər başlanacaq və Dördüncü Sənaye İnqilabında Azərbaycan lider olmalıdır”.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi Natiq Əmirov AZƏRTAC-a müsahibəsində bu mühüm hadisənin əhəmiyyətini şərh edərkən deyib ki, belə bir mərkəzin Azərbaycanda yaradılması birbaşa Prezident İlham Əliyevin şəxsi iradəsi ilə bağlıdır. Beynəlxalq təşkilatlar Azərbaycanda həyata keçirilən texnologiyayönümlü, innovativ layihələri, ümumilikdə aparılan işləri yüksək qiymətləndirib. Çünki Azərbaycanda insan kapitalının inkişafı üçün çox böyük işlər görülüb. Son dövrlərdə aparılan islahatlar nəticəsində insan kapitalına diqqəti artırmaq, gənc kadrların, yeni düşüncə tərzinə malik insanların, yüksək təhsil almış, eyni zamanda, dünya iqtisadi və siyasi məkanında baş verənləri təhlil etməyə qadir gənclərin irəli çəkilməsinə xüsusi önəm verilir.

Qeyd edək ki, Dünya İqtisadi Forumunun regional mərkəzləri azsaylı ölkələrdə yaradılıb. İsrail, Cənubi Afrika Respublikası, Birləşmiş Ərəb Əmirlikləri, Kolumbiya və Səudiyyə Ərəbistanından sonra Azərbaycan Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Regional Mərkəzinin yaradıldığı altıncı ölkə olacaq. Dünya İqtisadi Forumunun Bakıda yaradılacaq Dördüncü Sənaye İnqilabı Mərkəzi, yeni texnoloji məhsulların implementasiyası, inkişaf etməkdə olan texnologiyalarla əlaqəli problemlərin həlli və sektorlararası əməkdaşlığın sürətləndirməsi üçün tərəfdaşlıq platforması olacaq. Mərkəz həm tərəfdaş dövlətlərə, həm də özəl sektor nümayəndələrinə informasiya texnologiyaları sahəsində çevik həll yolları təklif edib, regionda miqyaslı tətbiqinə dəstək verəcək.

Dördüncü Sənaye İnqilabı miqyası, həcmi və mürəkkəbliyi baxımından bəşəriyyətin bütün əvvəlki təcrübələrinin heç birinə bənzəmir. Qarşıda bizi süni intellekt, robot-avtomobillər, nanotexnologiya, biotexnologiya və sair daxil olmaqla ən geniş sahələrdə heyrətamiz texnoloji sıçrayış gözləyir.

# Azərbaycan xarici investorlar üçün çox cəlbedici məkandır



Azərbaycan bu gün dünya miqyasında həm siyasi müstəvidə, həm iqtisadi sahədə, biznesin inkişafı baxımından çox böyük hörmətə malik bir ölkədir. Azərbaycan ictimai-siyasi və makroiqtisadi sabitliyi, eləcə də dayanıqlı inkişafı təmin olunmuş ölkə kimi tanınır. Ölkəmizdə davamlı islahatlar fonunda yaradılmış əlverişli biznes mühiti Azərbaycanı xarici investorlar üçün çox cəlbedici məkana çevirib. Bu, özünü ötən ayın sonlarında Prezident İlham Əliyevin Davos Dünya İqtisadi Forumu çərçivəsində siyasi liderlər, iş adamları ilə keçirdiyi görüşlərdə bir daha göstərdi.

Prezident İlham Əliyev bu yaxınlarda Davos Forumu çərçivəsində iyirmidən çox görüş keçirib. Bütün bu görüşlər qarşı tərəfin təşəbbüsü ilə baş tutub. Bu, belə bir reallığın təsdiqidir ki, Azərbaycana beynəlxalq miqyasda böyük maraq və rəğbət var. Ölkəmizdə iş görmək istəyən şirkətlərin sayı artır.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi Natiq Əmirov AZƏRTAC-a müsahibəsində bu barədə danışarkən vurğulayıb ki, Prezident İlham Əliyev Davos Forumunda keçirdiyi görüşlərdə hər fürsətdən istifadə edərək ölkəmizi dünyaya təqdim edirdi. Yüksək texnologiyalara malik şirkətlərlə görüşlər, nəhəng şirkətlərin ölkəmizə gəlişi texnoloji transferin sürətlənməsi, investisiyaların çoxalması, yeni iş yerlərinin açılması və bütövlükdə iqtisadiyyatın rəqabət qabiliyyətinin güclənməsi deməkdir. Transmilli şirkətlərlə əməkdaşlıq Azərbaycanın qlobal dəyər zəncirinə inteqrasiyasını sürətləndirir. Ölkə başçısının Davosda müxtəlif sektorlarda fəaliyyət göstərən xarici şirkətlərin rəhbərləri ilə keçirdiyi görüşlər həmin şirkətlərlə əlaqələrin qurulması, qarşılıqlı əməkdaşlığın gücləndirilməsi, bununla da Azərbaycanın iqtisadi inkişafı istiqamətində öz töhfəsini verəcək.

Bu baxımdan texnologiya sahəsində ixtisaslaşmış şirkətlərdən “Signify” və “CİSCO”nun rəhbərləri ilə keçirilmiş görüşləri xüsusi qeyd etmək olar. Belə ki, “Signify” şirkəti son üç ildə ardıcıl olaraq “Dow Jones Davamlılıq İndeksi”nin “Elektrik komponentləri və avadanlıqları” kateqoriyası üzrə birinci yerdə olan, işıqlandırma sahəsində innovativ, yüksəkkeyfiyyətli, enerjiyə qənaət edən işıqlandırma məhsulları, sistem və xidmətlər təqdim edən dünya lideridir. “Signify” şirkətinin baş icraçı direktoru Erik Rondolat ilə görüşdə ölkəmizə yeni texnologiyaların gətirilməsi ilə iqtisadiyyat, o cümlədən kənd təsərrüfatı sahəsində, həmçinin “ağıllı şəhər” layihələrində və internet texnologiyaları ilə işıqlandırma sistemlərinin inteqrasiyası istiqamətində müxtəlif həll variantlarının tətbiqi müzakirə mövzusu olub. Yetmişdən çox ölkədə fəaliyyət göstərən şirkət indiyədək dünyada 53 milyon obyektin işıqlandırılmasını təmin edib. Orta hesabla bir ilə 6 milyard avro dəyərində xidmət satışını həyata keçirən belə bir şirkətin Azərbaycanı biznes hədəfi olaraq seçməsi ölkəmizin uğurudur.

Azərbaycanın uzun müddətdir müxtəlif sahələrdə əməkdaşlıq etdiyi “CİSCO” şirkətinin icraçı vitse-prezidenti və baş maliyyə direktoru xanım Kelli Kramerlə görüşdə isə prioritet istiqamətlər üzrə layihələrin reallaşdırılması barədə danışılıb. Qeyd olunub ki, bu şirkət üçün iqtisadiyyatı sürətlə rəqəmsallaşan Azərbaycanda çox böyük biznes potensialı mövcuddur. “CİSCO” Azərbaycanı regionda ən önəmli ölkə kimi qəbul edir.

Yaxud texnoloji transfer baxımından “SUEZ Group” şirkətinin imkanlarına nəzər salaq. Şirkət kimya məhsullarının istehsalı, məişət tullantılarının yığılması və emalı istiqamətində, habelə irriqasiya və meliorasiya sahəsində beş qitədə fəaliyyət göstərir və 160 illik təcrübəyə malikdir. Şirkətin baş icraçı direktoru Bertran Kamusla Prezident İlham Əliyevin görüşündə Azərbaycanda qabaqcıl texnologiyaların tətbiqi barədə fikir mübadiləsi aparılıb. Şirkətlə əməkdaşlığın 2020-ci ildə də davam etdirilməsi qərara alınıb.

“SUEZ” real vaxt rejimində çalışan nəzarət sistemi, ağıllı sensorlar və sayğaclar, həmçinin elektroxlorlaşma həyata keçirən qurğular kimi bir sıra rəqəmsal və innovativ həllərin ölkəmizə transferini həyata keçirəcək. Bundan başqa, 2014-cü ildən etibarən şirkət tərəfindən mütəxəssislərə təlimlərin keçirilməsi və nou-hau xidmətinin göstərilməsi də həyata keçirilir və bu xidmətlərdən yararlanan mütəxəssislərin sayı 13 minə çatıb.

# "Seçki daim yenilənən texnologiyadır, dünyanın hansı ölkələrində keçirilməsindən asılı olmayaraq daim yenilənən sistemdir"




***Resurs Analitik İnformasiya Mərkəzi İctimai Birliyinin sədri, siyasi ekspert Rasim Quliyev Trend Xəbərlər şirkətinin Mətbuat Mərkəzində mətbuat konfransı keçirib. SİA-nın verdiyi məlumata görə, konfransda Rasim Quliyev 1995-2020 Milli Məclisə seçkilərlə əlaqədar apardığı araşdırmaları barədə ətraflı məlumat verib.***

Siyasi ekspert bildirib ki, 1995, 2000, 2005, 2010, 2015- ci illərdə keçirilmiş Milli Məclisə sekilərdən fərqli olaraq bu il rekord sayda vətəndaşlarımız namizədliklərini irəli sürüb. Namizədlər arasında gənclərin və qadınların sayına görə də ötən Milli Məclisə seçkilərdən fərqlənir.

2005-ci ilə qədər I və II çağrış parlament seçkiləri qarışıq sistem üzrə keçirilirdisə 2005-ci ildən Miili Məclisə seçkilər majoritar qaydada keçirilir. 2005-ci ildə noyabrın 6-da keçirilən seçkilərdə 1541 nəfər qeydə alınmış namizədlərin 58% siyasi partiyalar, 42% bitərəflər təşkil edib. İştirak edənlərin 11% qadın namizədlər olub.

2010-cu ildə Seçki marafonunda iştirak etmək üçün dairə seçki komissiyalarına 1043 vətəndaş müraciət etmiş, onlardan 743-ü qeydiyyata alınmış, 690 namizədin adı seçki bülletenlərinə daxil edilmişdir. Milli Məclisə seçkilərdə 23 siyasi partiya tərəfindən namizədlər irəli sürülmüş, bunlardan 10-u müstəqil, 13-ü isə 5 blokda birləşərək iştirak etmişdir. Qadın namizədlər 13% təşkil edib.

2015-ci ildə 1823 nəfər müraciət edib: "Onlardan 572-si siyasi partiyalar, 62-si "Azadlıq-2015" seçki bloku, 3-ü təşəbbüs qrupu tərəfindən, 1186 nəfər isə öz təşəbbüsü ilə namizədliyini irəli sürüb. 1805-nin namizədliyinin irəli sürülməsi təsdiq edilib". Bunlardan 123 nəfəri qadınlardır. Qeydə alınan namizədlərin 213-ü siyasi partiyalar, 5-i "Azadlıq-2015" bloku, 2-si təşəbbüs qrupu, 662-si isə fərdi qaydada irəli sürülüb.

Bu il fevralın 9- da Milli Məclisə keçiriləcək seçkilərdə isə namizədlərin rekord sayda 2431 nəfər müraciət edib. Yenə rekord sayda, 1637 nəfər namizəd qeydə alınmışdır, lakin yanvarın 31-dək olan dövrdə onlardan 312-si namizədliyini geri götürüb. Xüsusilə, namizədliyini geri götürənlərin bir çoxu hakim Yeni Azərbaycan Partiyasının (YAP) üzvləridir. Belə ki, partiyanın qərarına tabe olmayan deputatlığa namizədləri dəstəkləməyəcəyini və partiya sıralarından xaric ediləcəyi ilə bağlı bəyanat verdikdən sonra namizədliyini geri götürənlərin sayı 95 nəfərdən 237-yə çatıb. Beləcə, namizədlərin sayı 1325-ə enib. Bunlardan, 360 namizəd 19 siyasi partiyanı təmsil edirlər.

Ən çox namizədlə təmsil olunan partiya və siyasi blokların siyahısı aşağıdadır: Yeni Azərbaycan Partiyası - 123 namizəd (47 nəfər köhnə tərkibdəndir)(onlardan 25 nəfəri qadın namizəddir) YAP namizədlərinin 18 nəfərini 35 yaşadək gənclər, 30 nəfərini isə 60 yaşdan yuxarı şəxslər təşkil edir. 35-59 yaş arası namizədlərin sayı isə 75 nəfərdir. Müsavat Partiyası - 81 namizəd, ReAl Cümhuriyyətçilər İttifaqı - 31 namizəd, Hərəkət Seçki Bloku - 18 namizəd, İslahatlar Naminə Açıq Media Bloku (İNAM) - 16 namizəd, Ana Vətən Partiyası - 14 namizəd, Azərbaycan Demokrat Partiyası - 10 namizəd, Azərbaycan Milli İstiqlal Partiyası - 9 namizəd, Müasir Müsavat Partiyası - 5 namizəd... Digər partiyalar - Vətəndaş Həmrəyliyi Partiyası, Böyük Quruluş Partiyası, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası, Milli Dirçəliş Hərəkatı Partiyası, Böyük Azərbaycan Partiyası, Vahid Azərbaycan Partiyası, Azərbaycan Təkamül Partiyası, Azərbaycan Sosial Rifah Partiyası, Vəhdət Partiyası, Demokratik İslahatlar Partiyası, Azərbaycan Liberal Demokrat Partiyası, Azərbaycan Demokratik Maarifçilik Partiyası, Ümid Partiyası.

Milli Məclisə seçkilərdə deputatlığa namizəd qadın və kişilərin sayı 299 nəfəri, başqa sözlə, 22,58 faizi qadındır. Kişi deputatlığa namizədlər isə 1025 nəfərdir. Yəni deputatlığa namizədlərin 77,42 faizi kişidir. Namizədlərin yaş həddi, 18-28 yaş həddi 82 nəfər, 29-39 yaş həddi 407 nəfər, 40-55 yaş həddi 542 nəfər, 56-66 yaş həddi 251 nəfər, 67+ yaş həddi 43 nəfər təşkil edir.

Parlament seçkiləri ilə əlaqədar ümumi şikayətlərin sayı 30-40-ı keçmir. Yəni, builki seçkilərdə şikayətlər ötən seçkilərlə müqayisəolunmaz dərəcədə azdır.

Ölkə ərazisində keçirilən parlament seçkilərində seçici fəallığı 2005-ci ildə 42.2%, 2010-cu ildə 49.56%, 2015-ci ildə 55.54% təşkil etmişdir ki, bu da seçici fəallığının yüksələn xət üzrə inkişafı kimi dəyərləndirilə bilər. Seçici fəallığından danışarkən 2018-ci il Azərbaycan Respublikası Prezidenti seçkilərində seçicilərin aktivliyi təxminən 85% olmuşdursa, 2019-cu il bələdiyyə seçkilərində seçici fəallığı 32.72% təçkil edib. Bu barədə aparılan araşdırmalar belə qənaət hasil edir ki, xalqın, vətəndaşın bu təsisatlara münasibəti fərqlidir. Ümumiyyətlə vətəndaşların hüquqi - siyasi savadı normaldan yüksək, təsisatlara inamı fərqlidir ki, bu da təsisatlara münasibətdə inamın şüurlarda möhkəmlənməsi üçün təbii prosesin gərəkliyi zərurətini ortaya çıxarır.

Resurs AİM-in sədri Rasim Quliyev onu da diqqətə çatdırıb ki, "Seçki daim yenilənən texnologiyadır. Yəni seçkilərin keçirilməsi dünyada istər ən yüksək inkişaf etmiş ölkələrdə, istər inkişaf etməkdə olan ölkələrdə keçirilməsindən asılı olmayaraq daim yenilənən sistemdir. Elm və texnologiya inkişaf etdikcə insanların şüuru da buna adekvat olaraq inkişaf edir. Bu gün Azərbaycanda seçki məntəqələrinin çox böyük əksəriyyətində, çox yüksək faizində veb-kameraların quraşdırılması, namizədlərin seçiciləri qeyri-qanuni hərəkətlərə məcbur etməməsi üçün hökumət tərəfindən çox ciddi işlər görülür. Əvvəllər seçicilərin barmaqlarına gec gedən mayelərin vurulması ilə onların başqa dairədə səs verməsinin qarşısı alınırdısa, indi elektron şəbəkədən istifadə etməklə də müəyyən inzibati tədbirlərin görülməsinə şərait yaradılır. Artıq vətəndaşların özü də seçki qanunvericiliyini pozmaqdan çəkinirlər. Beləliklə, Azərbaycanda 9 fevral tarixində keçiriləcək Milli Məclisə seçkilərdə bu günə qədər aparılan prosedurların hər biri hüquqi cəhətdən ən yüksək standartlara uyğun, texniki cəhətdən bütün tələblərə cavab verən şəkildə təşkil olunaraq keçirilmişdir. Kiçik qanun pozuntuları görülən böyük işlərə kölgə salmaq iqtidarında deyil. Azərbaycanda keçiriləcək seçkilərə həm hüquqi, həm texniki hazırlıq dünya standartlarına cavab verir".

Apardığımız araşdırmalara əsasən deyə bilərəm ki, bu il Azərbaycanda keçirilən parlament seçkilərində bir çox dairələrdə rəqabət daha böyükdür. Belə ki, 15 saylı dairədə 21 nəfər namizəd, 16 saylı dairədə 21, 29 saylı dairədə 20 nəfər deputatlığa namizəd qeydiyyatdan keçib. Azərbaycanda qeydiyyatdan keçmiş 10-dan çox namizədin mübarizə apardığı dairələrin sayı 52-dən çoxdur. Bunların 28-i Bakı və Abşeron yarımadasına, 24-ü isə kənd və rayon seçki dairələrinə aiddir. Ən ucqar rayonlarda - Lerik, Lənkəran kimi rayonlarda seçki dairələrində mübarizə aparan namizədlərin sayı 10-15 nəfərdir. Bu ötən seçkilərdən olduqca fərqlənir və çox müsbət haldır. Məsələn, tutaq ki, Lerik rayonunda 15 nəfər namizəd qeydiyyatdan keçirsə, həmin namizədlərin yaxınları, əqrabası da seçkilərə cəlb edilirsə, bu özü seçicilərin fəallığını, namizədlərin ciddi rəqabət prinsipallığını, nəticədə isə seçkinin aktiv siyasi temprament ilə keçirilməsini şərtləndirdiyi üçün seçkinin ümumi mənzərəsinə təsir göstərən çox mühüm haldır. 2020-ci il parlament seçkiləri bələdiyyə seçkilərindən qısa zaman kəsiyindən sonra keçirildiyinə görə vətəndaşlarımız eləcə də aidiyyatı orqanlar bu seçkiyə tam hazırdır. Bu faktın özü də 9 fevral Parlament seçkilərinin ən yüksək, müasir standartlara cavab verən şəkildə təşkil olunduğunu deməyə əsas verir. Seçkidə iştirak edən, xüsusən, müxalifət namizədləri də etiraf edirlər ki, seçkiyə hazırlıq yüksək səviyyədədir və heç bir namizədə hər hansı maneə yaradılmamışdır. Azərbaycan Prezidentinin də dediyi kimi xalqın tələbinə cavab verən parlamentin yaradılmasına nail olacağıq.

***Resurs Analitik İnformasiya Mərkəzinin Mətbuat xidməti***

# "Yüksəliş" müsabiqəsinin qalibləri dövlət qulluğuna imtahansız qəbul ediləcəklər




"Yüksəliş" müsabiqəsinin hər bir qalibinə ayrılacaq 20 min manat qrantın 10 min manatı müsabiqə bitəndən sonra 1 il ərzində mütləq təhsilə xərclənməlidir. Bundan əlavə, müsabiqənin qalibləri dövlət qulluğuna imtahansız qəbul ediləcəklər.

AZƏRTAC xəbər verir ki, bunu "Yüksəliş" müsabiqəsinin qeydiyyat mərhələsinin başa çatması ilə bağlı keçirilən mətbuat konfransında Gənclər və İdman nazirinin müavini, müsabiqənin işçi qrupunun rəhbəri Fərhad Hacıyev bildirib.

Fərhad Hacıyev deyib: "Müsabiqənin qaliblərinin adları kadr bankına daxil ediləcək. Həmin şəxslərin hansı müddətdə kadr bankında qalacağına gəlincə isə deyə bilərəm ki, onların burada uzun müddət qalacağına inanmıram. Bu gün ölkədə aparılan islahatları da nəzərə alsaq, yəqin ki, həmin şəxslər qısa müddətlə müvafiq işlə təmin olunacaqlar. Hətta bəzi qurumlar var ki, nəinki qaliblər, hətta finala çıxacaq namizədlərlə də işləmək niyyətindədir. Müsabiqənin qalibləri dövlət qulluğuna imtahansız qəbul ediləcəklər. Biz bu barədə Dövlət İmtahan Mərkəzi ilə razılıq əldə etmişik. Yəqin ki, bununla əlaqədar dövlət qulluğuna qəbul qaydalarında dəyişiklik də ediləcək".

# Azərbaycandakı islahatlar ABŞ radiosunun diqqət mərkəzində



ABŞ-ın nüfuzlu və milyonlarla izləyici kütləsinə malik Con Batçelor Şou Radio proqramında Azərbaycanda keçiriləcək parlament seçkiləri müzakirə edilib. Canlı yayımda Con Batçelor ölkəmizin ABŞ-dakı səfiri Elin Süleymanovdan müsahibə alıb. Məşhur aparıcı Azərbaycanın sürətli inkişaf nəticəsində keçmiş Sovet İttifaqı respublikasından çiçəklənən, regionun enerji və nəqliyyat layihələrinin mərkəzində olan dövlətə çevrilməsinin şahidi olduğunu bildirib.

Səfir Elin Süleymanov parlament seçkiləri ərəfəsində Azərbaycan əhalisində yüksək enerji və dinamikliyin müşahidə olunduğunu qeyd edib. O, Prezident İlham Əliyevin apardığı islahatlar nəticəsində böyük iqtisadi dəyişikliklərin əldə edilməsinə, korrupsiyaya qarşı mübarizə sahəsində əhəmiyyətli addımlar atılmasına, eləcə də çoxsaylı kadr islahatlarının aparılmasına diqqət çəkib. Hökumətdə yeni simalar və parlamentə namizədliyi qeydə alınanlar arasında çoxsaylı gənclərin olmasını vurğulayıb. Səfir bildirib ki, Milli Məclisdə mövcud olan 125 deputat yeri üçün 1300-dən çox namizədin qeydə alınması, bu namizədlərin dinamik və bəzən kifayət qədər gərgin seçkiqabağı kampaniya aparması Azərbaycanda bu gün açıq və plüral cəmiyyətin mövcudluğuna bariz nümunədir.

E.Süleymanov ölkəmizin innovasiyalar sahəsində qabaqcıl addımlar atması, startapların inkişafı və hətta bu sahədə region ölkələri üçün nümunəvi model olmasından bəhs edib. Vurğulayıb ki, Prezident İlham Əliyevin rəhbərliyi altında enerji sektoru ilə yanaşı, yüksək texnologiyalar və iqtisadiyyatın şaxələndirilməsinə xüsusi əhəmiyyət verilir, bu sahədə gənclərin önə çəkilməsinə xüsusi diqqət ayrılır.

Azərbaycanda hazırda istər dövlət, istərsə də ictimai mətbu orqanlarında açıq müzakirələrin, fikir mübadilələrinin, tənqidi yanaşmaların yer aldığını qeyd edən səfir bildirib ki, bütün bunlar ölkəmizdə açıq mühitin olduğunu bir daha təsdiqləyir və olduqca ruhlandırıcı təsir bağışlayır.

Sonda ölkəmizin sürətli inkişafından, insanların rifahının yaxşılaşmasından bəhs edən C.Batçelor Bakının təkcə Azərbaycanın deyil, Xəzər regionunun paytaxtı olmasının qürurverici hal olduğunu bildirib. Müsahibənin tam versiyası ilə https://podcasts.apple.com/gh/podcast/ internet səhifəsindən tanış olmaq mümkündür.

AZƏRTAC-ın Vaşinqton bürosu

# Ermənistanda antikonstitusion "Konstitusiya düzəlişləri"

*Ermənistanın hüquq müdafiəçisi Yervand Varosyan özünün "Facebook" səhifəsində parlement çoxluğuna malik olan hakim "Mənim addımım" fraksiyasının deputatı Vaaq Ovakimyanın konstitusiya layihəsində ediləcək düzəlişlərlə bağlı təklifini sərt şəkildə tənqid edib və bunu açıq şəkildə qanunun pozulmasına doğru atılan addım kimi qiymətləndirib. O, bildirib ki, həmin təklif nəinki qanun çərçivəsindən çıxmağa doğru yönəlmiş de-fakto cəhdidir, həm də onu de-yure qanuniləşdirməkdir. Onun bu fikirlərini "tert.am" saytı ictimailəşdirib.*



**Yervand Varosyan: "İstənilən siyasi, hüquqi və iqtisadi böhran dövlətin anarxiyaya çevrilməsi təhlükəsini yaşadacaq"**

### "Bu, Konstitusiyanı dəyişmək üçün, Konstitusiyanın pozulması yönündəki təhlükəli nöqtədir"

"Bunun ciddiliyini anlayıb təhlükəli hal olduğunu bilməliyik. Mümkündür ki, bu hakimiyyətin dəyişilməsindən sonra ilk haldır", yazan erməni hüquq müdafiəçisi əlavə edib ki, bu, bütövlükdə hakimiyyətin uzurpasiyasına hesablanmış addımdır və həmin yol marionet Konstitusiya Məhkəməsinə aparır: "Bu, Konstitusiyanı dəyişmək üçün, Konstitusiyanın pozulması yönündəki təhlükəli nöqtədir".

Y.Varosyana görə, onun həmkarları da kifayət qədər fikirlər bildirməklə qeyd ediblər ki, Konstitusiya normalarının Konstitusiya Məhkəməsinin qərarı olmadan dəyişdirilməsi yolverilməzdir.

"Görünən budur ki, konstitusiya düzəlişləri hüququnun xalqdan alınıb, dövlət orqanlarına verilməsi birbaşa qanunları tapdamaqdır", hüquq müdafiəçisi bildirib və qeyd edib ki, hətta ən dəhşətli halda təsəvvürə gətirmək olmur ki, qanunverici orqandakı hər hansı siyasi gücün iştirakı ilə Konstitusiyaya birmənalı düzəlişlər edilsin: "Çox danışılırdı ki, bu addım xüsusi amansız cinayət hesab olunur və qanunla mühakimə olunmalıdır. Lakin mən bu problemə daha mühüm nəzər nöqtəsi ilə baxmaq istərdim. Bu, bütün hakimiyyəti ələ keçirmək həvəsi, siyasi didişmə və xüsusi amansız cinayətidir ki, gələcəkdə cinayət məsuliyyətinə cəlb edilənlər olacaq".

### "Konstitusiya düzəlişləri de-fakto antikonstitusion yolu ilə realizə ediləcək"

Erməni hüquq müdafiəçisi mövcud olaya dövlət təhlükəsizliyi baxımından da yanaşıb: "Gəlin problemə dövlət təhlükəsizliyi baxımından da yanaşaq və araşdıraq ki, biz əslində nə ilə oynayırıq? Təsəvvürə gətirək ki, konstitusiya düzəlişləri de-fakto antikonstitusion yolu ilə realizə ediləcək. Bu isə onu göstərir ki, Konstitusiya qeyri-legitim olacaq. Belə olan halda, dövlətin hüquqi təhlükəsizliyi barədə danışmaq yersizdir, istənilən siyasi, hüquqi və iqtisadi böhran isə, dövlətin anarxiyaya çevrilməsi təhlükəsini yaşadacaq".

Beləliklə, Y.Varosyan bu addımların ciddi təhlükə yaratdığını, dövlətçiliyin isə məhvə doğru sürükləndiyini bildirib və çox yəqin ki, Ermənistanda həqiqətən də daha ağır siyasi böhranlar yaşanacaq.

*Rövşən NURƏDDİNOĞLU*

# Azərbaycan inkişaf, sabitlik yolu ilə gedir



***"Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunları bir daha onu göstərdi ki, dövlətimiz doğru yoldadır, müstəqil siyasət yürüdür, ölkəmiz daha da güclənir. Əlbəttə ki, bu da səbəbsiz deyil. Ona görə ki, dördüncü proqram əvvəlki dövrlərdə qəbul edilmiş proqramların məntiqi davamıdır. Üç proqram çərçivəsində böyük işlər görülüb və dördüncü proqram çərçivəsində ölkə qarşısında duran əsas infrastruktur vəzifələri icra olunacaq. Bununla da ölkəmizin gələcək inkişafı üçün daha gözəl imkanlar yaranacaq.***

Bu sözləri AZƏRTAC-a açıqlamasında Yeni Azərbaycan Partiyası (YAP) Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə deyib.

Dünyada yeni münaqişə ocaqlarının və gərginlik yerlərinin yarandığını, mövcud problemlər öz həllini tapmadığını, Avropada, Afrikada, Asiyada, Latın Amerikasında, hətta postsovet məkanında müəyyən gərginliyin müşahidə olunduğunu, lakin bütün bunların fonunda Azərbaycanın inkişaf, sabitlik yolu ilə getdiyini vurğulayan Vüqar Rəhimzadə bildirib: "Təsadüfi deyil ki, 2019-cu ildə ölkə iqtisadiyyatı 2,2 faiz, qeyri-neft sektoru 14 faizdən çox, sənaye istehsalı isə 1,5 faiz artıb. Keçən il 98 min yeni iş yeri yaradılıb, ölkəmizə 13,5 milyard dollar sərmayə qoyulub, inflyasiya cəmi 2,5 faiz, əhalinin gəlirlərinin artımı isə 7,4 faiz təşkil edib. Valyuta ehtiyatlarımız da 6,4 milyard dollar artıb. Xüsusilə qeyd etmək lazımdır ki, bu, son illər ərzində rekord göstəricidir. Azərbaycanın valyuta ehtiyatları artıq 52 milyard dollara çatıb. Valyuta ehtiyatımız təkcə keçən ay ərzində 1 milyard dollar artıb. Məhz bütün bunların nəticəsidir ki, Azərbaycanda həyata keçirilən islahatlar Dünya Bankı tərəfindən təqdir edilir. Hətta "Doing Business" hesabatında Azərbaycan keçən il 20 ən islahatçı ölkə sırasına daxil edilib".

Son illərdə aparılan nəhəng sosial infrastruktur quruculuğu işlərinin regionların mənzərəsini tamamilə dəyişdiyini söyləyən baş redaktor qeyd edib: "Bu illər ərzində regionlarda 58 min kilometr uzunluğunda yeni qaz xətləri, su təchizatının yaxşılaşdırılması üçün bölgələrdə 13 min kilometr uzunluğunda içməli su xətləri çəkilib, 470-ə yaxın modultipli sutəmizləyici qurğu quraşdırılıb, 706 min nəfər əhali içməli su ilə təmin edilib. Uzunluğu 16 min kilometrdən çox olan yollarda təmir-tikinti işləri aparılıb, 470 körpü və tunel istifadəyə verilib. Bunun nəticəsidir ki, avtomobil yollarının keyfiyyətinə görə bu gün Azərbaycan bir çox inkişaf etmiş ölkələri qabaqlayaraq dünyada 27-ci yerdədir".

Vüqar Rəhimzadə bildirib ki, Prezident İlham Əliyev "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunan konfransda ölkəmizin əldə etdiyi uğurlarla yanaşı, bir sıra sahələrdə mövcud problemlərə də toxunub və onların tezliklə aradan qaldırılmasına dair tapşırıqlar verib.

Bu konfransın nəticələrinin Azərbaycanın dinamik inkişafını qoruyub saxladığını, insanların rifah halının yaxşılaşdığını və firavanlığının təmin edildiyini, ölkəmizin beynəlxalq aləmdəki mövqeyinin getdikcə gücləndiyini isbatladığını diqqətə çatdıran baş redaktor deyib: "Azərbaycanda düşünülmüş uzunmüddətli siyasət ən yüksək səviyyədə həyata keçirilir, ölkəmizdə aparılan islahatlar ardıcıl xarakter daşıyır. Ona görə də Azərbaycanın uğurları və nailiyyətləri beynəlxalq təşkilatlar, reytinq agentlikləri tərəfindən təqdir olunur, hətta dünyaya nümunə kimi göstərilir. Azərbaycanın dünya iqtisadiyyatının ən sürətli inkişaf edən tərkib hissəsi kimi təqdim edilməsi və nümunə olaraq göstərilməsi ölkəmizin qlobal miqyasda qüdrətli bir dövlət olaraq qəbul edildiyini sübut edir".

# Hikmet Eren: Azərbaycanda çox gözəl seçki mühiti var




Müşahidələrimə əsasən deyə bilərəm ki, Azərbaycanda çox gözəl seçki mühiti var. Bu fikirləri secki-2020.az saytına açıqlamasında türkiyəli ictimai xadim, Avrasiya İqtisadi Əlaqələr Dərnəyi İdarə Heyətinin rəhbəri, "EkoAvrasiya" jurnalının baş redaktoru Hikmet Eren bildirib.

"Azərbaycan demokratik dəyərlərin möhkəmləndirilməsi istiqamətində ciddi uğurlar əldə edib. Bu seçkilərdə daha güclü rəqabətin olduğunu deyə bilərəm. Parlament seçkiləri Azərbaycandakı sosial şəbəkə istifadəçilərinin əsas mövzusudur. Burada aparılan müzakirələr, edilən paylaşımlar deməyə əsas verir ki, ölkədə demokratik seçki mühiti mövcuddur. Bu mühit azad və ədalətli seçkilərin keçirilməsi üçün münbit zəmin yaradıb", - deyə H.Eren bildirib.

# Kərim Tahirov: "Milli Kitabxana dünyanın 70-dən çox ölkəsi ilə kitab mübadiləsi aparır"

Azərbaycan Milli Kitabxanası dünyanın 70-dən çox ölkəsi ilə kitab mübadiləsi aparır. Çalışırıq ki, mübadilə zamanı tarixi kitablara xüsusi diqqət ayıraq. Tarix İnstitutunun xarici dillərdə nəşrlərinin Azərbaycan Milli Kitabxanasına təqdim edilməsi bizim bu sahədə işlərimizə bir töhfədir. AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Milli Kitabxanasının direktoru, professor Kərim Tahirov AMEA-nın Tarix İnstitutunun xarici dillərdə nəşrlərinin Milli Kitabxanaya təqdimatında jurnalistlərə açıqlamasında deyib. O bildirib ki, təqdim olunan nəşrlər bir ay müddətində əməkdaşlıq etdikləri kitabxanalara göndəriləcək.



## Beynəlxalq Valyuta Fondu: Qlobal neft tələbatı daha tez müddətdə pik həddə yüksələ bilər



Beynəlxalq Valyuta Fondu (IMF) qlobal neft tələbatının daha tez müddətdə pik həddə yüksələcəyini nəzərdə tutur. Bu barədə IMF-nin Körfəz Əməkdaşlıq Şurasına üzv 6 ölkənin maddi sərvətləri ilə bağlı hazırladığı hesabatda deyilir. Bildirilir ki, ətraf mühitin qorunması və enerji səmərəliliyi üzrə tənzimləyici tədbirlər daha çox gündəmə gələcəyi təqdirdə qlobal neft tələbatı 2040-cı il ərəfəsində və ya daha erkən vaxtda pik həddə yüksələcək.

# Bakı dünya güclərinin ənənəvi mərkəzi rolunda

## NATO və Rusiya generallarının növbəti görüşü bu faktı bir daha təsdiq edir



***Məlum olduğu kimi, Azərbaycan Prezidenti İlham Əliyev Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi-müdafiə nazirinin birinci müavini Valeri Gerasimovun və NATO Müttəfiq Qüvvələrinin Avropadakı Ali Komandanı Tod Voltersin rəhbərlik etdikləri nümayəndə heyətlərini qəbul edib. Ölkəmizin başçısı artıq ənənəyə çevrilmiş Bakı görüşərini yüksək qiymətləndirərək vurğulayıb ki, bu, həm də Azərbaycan-Rusiya və ABŞ-ın ölkəmizə göstərdikləri böyük etimadın bariz göstəricisidir.***

### Prezident İlham Əliyev: "Bu mütəmadi görüşlər, əminəm ki, çox mühüm məsələlərin müzakirəsi dünyada və regionda sabitliyə yardımçı olacaq"

Beləliklə, buradan həm də belə bir nəticə çıxarmaq olar ki, həqiqətən də uğurlu ənənəyə çevrilmiş bu görüşlər Bakının regional siyasi və iqtisadi mərkəzdən beynəlxalq mərkəzə çevrildiyini sübut edir.

Prezident İlham Əliyev vurğulayıb ki, Bakının seçilməsi o deməkdir ki, bizim həqiqətən də çox güclü tərəfdaşlığımız var. Məhz bu baxımdan O, əminliklə deyib ki, görüş çox səmərəli olacaq, dünyada və regionumuzda sülh və sabitliyə xidmət edəcək. "Əslində, bizim də məhz buna ehtiyacımız var. Çünki ölkəmiz üçün əsas narahatlıq doğuran regional sabitlikdir. Bizdə potensial risklərin daxili mənbələri mövcud deyil", bildirən Azərbaycan Prezidenti xüsusilə vurğulayıb ki, baş verə biləcək potensial risklər sərhədlərimizdən kənarda yarana bilər: "Əlbəttə, bu mütəmadi görüşlər, əminəm ki, çox mühüm məsələlərin müzakirəsi dünyada və regionda sabitliyə yardımçı olacaq".

### Bakı güc mərkəzi olaraq, geosiyasi baxışlarını uğurla tənzimləyir və bu tənzimlənmə siyasəti həmin görüşlərin təşkil olunmasına münbit şərait yaradır

Söz yox ki, dünya güclərinin Bakını görüş məkanı olaraq seçmələri ilk növbədə Azərbaycanın dünyanın qlobal məsələlərində öncül yerlərdən birini tutmasıdır ki, bununla yanaşı, ölkəmizdə mövcud olan sabitlik və təhlükəsizlik amili də qeyd edilənlərin tərkib hissəsi olaraq nəzərə alınır. Həmçinin, rəsmi Bakının dünyadakı mövqeyi baxımından balanslı siyasət aparması da fövqəlgüclərin məhz Azərbaycanın paytaxtını seçmələrinə zəmin yaratmaqdadır. Ümumi götürdükdə isə, Bakı həm də regional güc mərkəzi olaraq, geosiyasi baxışlarını uğurla tənzimləyir və bu tənzimlənmə siyasəti əlbəttə ki, belə görüşlərin təşkil olunmasına münbit şərait yaradır.

Bir çox siyasi təhlilçilər öz şərhlərində bildirirlər ki, Rusiya, ABŞ və NATO komandanlarının Bakı görüşləri mövcud olan bir sıra problemlərin həlli baxımından ən mötəbər qərar hesab olunur. Yəni, rəsmi Bakının fövqəlgücləri bir araya gətirmək təşəbbüslərində yer alması, dialoq məkanı kimi qiymətləndirilməsi Azərbaycanın regionda güvənilən bir ölkə olduğunu isbat edir. Belə olan halda, Dağlıq Qarabağ münaqişəsi kimi problemin ədalətli həllində beynəlxalq dəstəyin qazanılması daha çox mümkün görünməkdədir. Daha dəqiq desək, ölkəmizin müsbət mənada dünyanın diqqət mərkəzinə çevrilməsi Dağlıq Qarabağ məsələsinin ərazi bütövlüyümüz çərçivəsində həll olunması faktoruna təkan verməkdədir.

### Valeri Gerasimov: "Hərbi-texniki əməkdaşlıq və silahlı qüvvələrimiz arasında digər tədbirlər genişlənir"

O da əbəs deyil ki, Rusiya generalı ölkə başçımızla görüşündə Azərbaycanın beynəlxalq terrorla mübarizədə daim öndə olduğunu vurğulamaqla yanaşı, həm də bildirib ki, bütün bunların fonunda Rusiya və Azərbaycan münasibətləri sevindiricidir: "Belə ki, bizim ortaq tariximiz və Sizin söylədiyiniz iqtisadi inkişafla bağlı həmin layihələrin fonunda mehriban qonşuluq münasibətlərimiz, hərbi qurumlarımız arasında qarşılıqlı fəaliyyət, xüsusən hərbi-texniki əməkdaşlıq və silahlı qüvvələrimiz arasında digər tədbirlər genişlənir. Çox yaxşıdır ki, bir növ biz hamımız, ordularımız bir ordunun - sovet ordusunun yetirməsidir. Hərbi sahədə münasibətlərimizin yaxınlaşması üçün gələcəkdə də hər şeyi edəcəyik".

Bu amil də deməyə əsas verir ki, Azərbaycan regionun ən sabit ölkəsi kimi, daim maraq dairəsindədir və bu maraq dairəsi belə bir müsbət nəticələrə gətirib çıxarır.

Rusiyanın tanınmış hərbi eksperti və politoloqu İqor Korotçenko Bakıda baş tutan NATO-Rusiya görüşlərini qiymətləndirərkən deyib ki, Azərbaycanın beynəlxalq nüfuzu nəzərə alınmaqla, Bakı danışıqlar üçün əlverişli meydançadır: "Azərbaycanın güclü silahlı qüvvələrinin olması da burada rol oynayır".

Rusiyalı hərbi ekspertn sözlərinə görə, Rusiya və NATO hərbi rəhbərliyinin Bakıda görüşməsinin əsas səbəbi Azərbaycanın beynəlxalq nüfuzunun olduqca yüksək olmasıdır.

Digər rusiyalı hərbi ekspert Viktor Litovkin də bildirib ki, Rusiya və NATO generallarının Bakıdakı görüşləri ilk dəfə deyil və bu kimi görüşlər gələcəkdə də davam edəcək. O, eyni zamanda Azərbaycan paytaxtının qonaqpərvər şəhər olmasını göstərib: "Belə yüksək səviyyədə danışıqlar aparmaq üçün Bakıda hər cür şərait var. Ona görə də, hesab edirəm ki, bu cür görüşlərin keçirilməsi Bakının haqqıdır. Həm də Rusiya və NATO generalları üçün Bakıda işləmək rahatdır"

### Tod Volters: "Biz xalqınızı və ordunuzu bütün etdiklərinizə görə təqdir edirik"

Söz yox ki, Azərbaycanın ABŞ və NATO ilə münasibətləri, xüsusilə terrorla mübarizədəki dəstəyi yüksək qiymətləndirilir və əlbəttə burada əsas olaraq, Əfqanıstanda "Qətiyyətli dəstək" missiyasına verilən dəstək əhəmiyyət daşıyır. Bu baxımdan, NATO generalı bildirib ki, Azərbaycan əsgərlərinin bu kimi mühüm işlərdəki fəaliyyətləri kifayət qədər yüksəkdir. "Biz xalqınızı və ordunuzu bütün etdiklərinizə görə təqdir edirik. Bu, Əfqanıstan sərhədlərinin xaricindən terror dəstələrinin ölkəyə daxil olmasının qarşısını almaqda bizim səylərimizə çox böyük təsir göstərir. Hesab edirəm ki, missiya yaxşı fəaliyyət göstərməyə davam edir və Sizin əsgərləriniz bu missiyanın böyük bir tərkib hissəsidir", deyə qeyd edən Volters Azərbaycanın ümumiyyətlə dünyadakı yüksək mövqeyinin olduğunu təsdiqləyib.

Beləliklə, bir daha əminliklə qənaətə gələ bilərik ki, Azərbaycan, onun paytaxtı Bakı beynəlxalq dialoq məkanı olaraq, bütün dünyada yüksək etimadlar qazanır, o cümlədən, təşəbbüskar mərkəzə çevrilir. Bu amil isə ölkəmizin dünya miqyasındakı artan nüfuzuna daha böyük stimullar verməklə, etibarlı tərəfdaş və söz sahibi statusunu möhkəmləndirir.

**RƏFİQƏ HÜSEYNOVA**

# Almaniyanın "TIPP Oil" şirkəti Azərbaycanda özünə tərəfdaş tapıb

Almaniyanın "INAR" internet platforması "TIPP Oil" Azərbaycanda yeni ölçü meyarları yaradır" başlıqlı məqaləsində Almaniyanın "TIPP Oil" şirkətinin Azərbaycandakı tərəfdaşı olan "Ibramus" şirkəti ilə əməkdaşlığa başladığı və məhsulların təkrar emalı sahəsində innovasiyaları ölkəmizdə tətbiq edəcəyi barədə məlumat verir.



TIPP OIL in Aserbaidschan setzt neue Maßstäbe

Geschrieben von Digital Ads

twittern | teilen | mitteilen

TIPP OIL in Aserbaidschan

TIPP OIL in Aserbaidschan

Wir verstehen uns nicht nur als ihr Hersteller und verlässlicher Lieferant hochwertiger Schmierstoffe, sondern auch als kompetenter Dienstleister, für unseren Kooperations Partner Ibramus in Aserbaidschan Baku.
TIPP OIL wird es zukünftig auch in Aserbaidschan auf dem Handelsmarkt geben mit innovativen Pfandsystem .
Auf grund der Nachhaltigkeit und der hohen Qualität ist sich TIPP OIL sicher auf dem Aserbeidschan Wirtschaftmarkt überzeugenden Eindruck zu hinterlassen und sich den Markt zu erkämpfen.
Wir danken unseren Partner Herrn Musayev Afrasim Musa
und den CEO Herrn Hasan Asadov für eine stabile und langfristige Partnerschaft unserer Unternehmen.
Rebottle unser Pfandsystem zu gunsten des Umweltschutzes wird effektiv umgesetzt.

Keywords:TIPP OIL , Aserbaidschan , Schmierstoffe ,

AZƏRTAC xəbər verir ki, məqalədə bütün dünyada öz məhsullarının keyfiyyəti və etibarlılığı ilə tanınan şirkətin istehsal etdiyi təkrar qablaşdırma və emal sistemlərinin Azərbaycanın ətraf mühitinin mühafizəsinə töhfə verəcəyi bildirilir. Şirkətin nəqliyyat vasitələri üçün motor yağları, aqrar texnika üçün müxtəlif məqsədli sürtkü yağları və sair istehsalı üzrə də ixtisaslaşdığı qeyd olunur.

# TÜRKPA-nın müşahidəçilər missiyası Azərbaycanda keçiriləcək parlament seçkilərini izləyəcək

Türkdilli Ölkələrin Parlament Assambleyasının (TÜRKPA) beynəlxalq müşahidəçilər missiyası fevralın 9-da Azərbaycanda keçiriləcək parlament seçkilərini müşahidə edəcək. AZƏRTAC xəbər verir ki, müşahidəçilər missiyasının tərkibi Qazaxıstan, Qırğızıstan və Türkiyə parlamentlərinin deputatlarından, TÜRKPA katibliyinin diplomatik nümayəndələrindən ibarətdir. Müşahidəçilər səfər müddətində bir sıra dövlət qurumlarında görüşlər keçirəcək, seçkilər günü isə Bakıda və regionlarda səsvermə prosesi üzrə monitorinq aparacaqlar. Fevralın 10-da müşahidəçilər missiyası tərəfindən aparılan müşahidələrin nəticələrinə dair mətbuat konfransı keçiriləcək və missiyanın seçkilərə dair rəsmi bəyanatı təqdim olunacaq.



# Azərbaycanın turizm imkanları genişlənib

## Prezident İlham Əliyev: “Keçən il xarici turistlər Azərbaycanda 4,3 milyard manat pul xərcləyiblər”

***“...Keçən il ölkəmizə 3 milyon 170 min turist gəlmişdisə, bu il daha çox gələcək”. Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev “Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının birinci ilinin yekunlarına həsr olunan konfransda bildirib. Dövlət başçısı keçən il xarici turistlərin Azərbaycanda 4,3 milyard manat pul xərclədikklərini vurğulayaraq, bunu ixrac növü kimi hesablasaq, neftdən sonra ikinci sahənin turizm olduğunu qeyd edib: “Məhz ona görə mən turizmin inkişafı üçün kompleks tədbirlərin görülməsini təmin etdim, son illər Azərbaycanda turistlərin sayı artıb və bu gün də artır”. Azərbaycan iqtisadiyyatının strateji istiqaməti sayılan turizm sektorunda aparılan islahatlar öz nəticəsini verib. Ölkəmizdə turizmin inkişafı üçün lazım olan bütün infrastruktur yaradılıb. Dövlətimizin başçısının səyləri nəticəsində, Azərbaycan dünyanın turizm ölkələrindən birinə çevrilib və dünyanın ən məşhur brend şəbəkəli mehmanxanalarının Azərbaycanda olmasının nəticəsidir ki, dünyanın ən sayılıb-seçilən hotelləri ilə müqayisədə diqqətçəkəndir. “Azərbaycanda dünyanın bütün aparıcı otellərinin brendləri fəaliyyət göstərir” - deyən Cənab Prezident qeyd edib ki, dünyanın aparıcı brendi kortəbii olaraq gəlib burada otel tikməzdi. Təkcə bir faktı qeyd edək ki, əgər 2002-ci ildə ölkədə fəaliyyət göstərən mehmanxana və mehmanxana tipli müəssisələrin sayı 94 olduğu halda ötən dövrlər ərzində onların sayı dəfələrlə artıb.***













### “DAVOSUN HESABATINDA AZƏRBAYCAN HAVA XİDMƏTLƏRİNƏ GÖRƏ 11-Cİ YERDƏDİR”

Ötən dövrlə müqayisədə ölkəmizdə geniş imkanların yaradılması məhz ölkəmizin turistlər üçün ən əlverişli istirahət məkanına çevirib. Ölkəmizdə bütün sahələrdə paralel olaraq aparılan inkişaf öz bəhərsini verib. Belə ki, Azərbaycanda yeddi aeroport tikilib ki, onların da altısı beynəlxalq aeroportdur. Dövlət başçısının sözlərinə görə, “Davosun hesabatında Azərbaycan hava xidmətlərinə görə 11-ci yerdədir. Heydər Əliyev Beynəlxalq Aeroportu artıq beşulduzlu aeroport kimi tanınır. Dünyada belə aeroportların sayı təqribən 10-na yaxındır. Onlardan biri də Heydər Əliyev Aeroportudur”. Bütün bunlarla yanaşı, ölkəmizdə hökm sürən sabitlik də turistlərin Azərbaycanı seçməsində önəmli faktoralardandır: “Onlar nəyə görə buraya gəliblər? Niyə başqa ölkələrə getmirlər?” - deyən dövlət başçısı diqqətə çəkib ki, ölkəmizdə sabitlik var, inam var, vəziyyət proqnozlaşdırılandır və investisiya mühiti, kredit reytinqlərimiz yaxşıdır: “Doing Business”dəki yerimiz yaxşıdır. Onlar görür, arayışa baxır. Dünyanın aparıcı brendi kortəbii olaraq gəlib burada otel tikər? Əlbəttə ki, yox. İqlim gözəldir, 9 iqlim zonamız var, xalqımızın qonaqpərvərliyi, tarixi abidələr, mətbəximiz və əlbəttə ki, sabitlik və təhlükəsizlik. Ona görə turizm sahəsində bu işlər görülür”.

### “HARADA Kİ, BOŞLUQLAR VAR, BİZ ÖZ TURİZM İMKANLARIMIZI GƏRƏK SƏFƏRBƏR EDƏK”

Bu gün Azərbaycan turizmin inkişaf istiqamətində tarixi yerlərimizin yenidən qurulması və bərpası istiqamətində çox böyük işlər görülür. Ölkəmizdə dövlət tərəfindən, bütün sahələrə olduğu kimi, xüsusi tarixi əhəmiyyət daşıyan nümunələrə-qalalara, istehkamlara, məbədlərə, təbii qoruqlara diqqət və qayğı artıb. Ölkə ərazisində yerləşən bir sıra abidələrdə, Bakı şəhərində “Şirvanşahlar Saray Kompleksi”, “Məhəmməd” məscidi, “Kiçik Karvansaray”, “Bazar Meydanı”, “Məktəb-Məscid”, Şəki rayonunda “Şəki Xan Sarayı”, qala divarları, “Kiş” Alban Məbədi, Şərur rayonunda “Qudi-Xatun” türbələri, Babək rayonunda “Əshab-ül-Kəhf” Ziyarətgahı Dini-Mədəni Abidə Kompleksi, Gəncə şəhərində Nizami Gəncəvi Məqbərəsi və digər mühüm tarixi-memarlıq əhəmiyyəti olan abidələrdə bərpa-konservasiya işləri aparılıb. Görülən işlər tarixin daş yaddaşı olan abidələrin nəsillərdən-nəsillərə ötürülməsində əhəmiyyətlidir. “Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı”nın təsdiq edilməsi barədə dövlət başçısının Sərəncamı bu sahədə həyata keçirilən tədbirlərin davamı oldu.

Bu gün Azərbaycanda 28 tarixi qoruq var ki, onların 14-ü tarixi-mədəniyyət qoruğu, 8-i tarixi-memarlıq, 2-i tarixi-bədii qoruqdur. Qobustan Dövlət Tarix-Bədii Qoruğu, Nardaran Tarix-Mədəniyyət Qoruğu, Keşikçidağ Dövlət tarix-mədəniyyət qoruğu, Lahıc tarix-mədəniyyət qoruğu, “Çıraqqala” tarixi-memarlıq qoruğu, “Şabran şəhəri” Tarixi Qoruğu, “Avey” Dövlət Tarix-Mədəniyyət Qoruğu və s. dövlət səviyyəsində qorunur və mühafizə olunur. Qoruqların fəaliyyəti müasir tələblər səviyyəsində təşkil edilir. Turistlərin və ziyarətçilərin qoruqları rahatlıqla ziyarət etmələri üçün müvafiq infrastrukturun yaradılmasından tutmuş, elmi-tədqiqatların aparılmasına qədər ən müxtəlif istiqamətlərdə tədbirlər həyata keçirilir. Azərbaycan Respublikasının Prezidenti tərəfindən “Yanardağ” Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğu, “Ateşgah məbədi” Dövlət Tarix-Memarlıq Qoruğu, “Keşikçidağ” Dövlət Tarix-Mədəniyyət Qoruğu və “Xınalıq” Dövlət Tarix-Memarlıq və Etnoqrafiya Qoruğu yaradılıb. “Qobustan” Milli Tarix-Bədii Qoruğu ərazisində qoruğun yeni inzibati binası tikilmiş və müasir texnologiyalarla təchiz edilmiş ekspozisiyası yaradılmışdır. “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğunun və “Qobustan” Milli Tarix-Bədii Qoruğunun ərazisində yerləşən abidələrin qorunması təmin edilmiş, əraziləri abadlaşdırılmış və yeni turizm marşrutları müəyyən olunmuşdur. Bu qoruqlar müasir tələblərə cavab verən turizm obyektlərinə çevrilməkdədir. “Harada ki, boşluqlar var, biz öz turizm imkanlarımızı gərək səfərbər edək” - deyən Cənab Prezident keçən il Yanardağın tamamilə yenidən qurulduğunu bildirib: “...çox gözəl şərait yaradıldı və demək olar ki, Bakıya gələn turistlərin böyük əksəriyyəti oranı ziyarət edir”.

### “BİZİM TARİXİ YERLƏRİMİZİ, TARİXİ KƏNDLƏRİMİZİ TURİZM ZONASINA ÇEVİRMƏK ÜÇÜN PRAKTİKİ ADDIMLAR ATILIR”

Bizim palçıq vulkanlarımızın olduğunu da diqqətə çəkən Prezident o yerlərə yol olmadığını bildirib: “Hətta yol olsa belə, oraya gedib, bir stəkan çay içmək üçün yer də tapmaq mümkün deyil. Ona görə göstəriş vermişəm ki, bizim Turizm Agentliyimiz bu il bu məsələ ilə ciddi məşğul olsun. Necə ki, bu gün Yanardağa, yaxud da ki, Qobustana hər kəs gedir, palçıq vulkanlarına da hər kəs gedəcək. Çünki biz palçıq vulkanlarının sayına görə dünyada birinci yerdəyik”.

“Bizim tarixi yerlərimizi, tarixi kəndlərimizi turizm zonasına çevirmək üçün praktiki addımlar atılır” - deyə bildirən Prezident İlham Əliyev bu ilin yanvar ayında 2019-cu ilin yanvar ayı ilə müqayisədə turistlərin sayının 18 faiz artdığını qeyd edib: “Özü də turistlər üçün o qədər də cəlbedici olmayan yanvar ayında. Keçən il 11 faiz, ondan əvvəl 4 faiz, ondan əvvəl 24 faiz, ondan əvvəl 22 faiz, ardıcıllıqla. İndi ancaq yanvar ayında 18 faiz.”

Göründüyü kimi, ölkə ərazisində olan qoruqlarda, tarixi ərazilərdə dövlət tərəfindən genişmiqyaslı bərpa-konservasiya, elmi-tədqiqat, yenidənqurma və abadlaşdırma işləri aparılıb və bu gün də davam etməkdədir. Əsrlərin sınağından keçmiş, təbii təsirlərə məruz qalmış və nəticədə, qəza vəziyyətinə düşmüş tarix və mədəniyyət abidələrimizə dövlətimiz tərəfindən diqqətin ayrılması, təbii ki, turizm sektoruna da öz töhfəsini verəcəkdir.

**Nəzakət ƏLƏDDİNQIZI**

# YAP Binəqədi rayon təşkilatının yeni ərazi ilk partiya təşkilatı təsis edilib





***Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının Binəqədi rayonu, Süleyman Sani Axundov 73C ünvanda (Qida Təhlükəsizliyi İnstitutu) yeni ərazi ilk partiya təşkilatı təsis edilib və gündəlikdə duran bir sıra məsələlərə baxılıb.***

Təsis yığıncağını giriş sözü ilə açan Qida Təhlükəsizliyi İnstitutunun İdarə Heyətinin sədr müavini, Yeni Azərbaycan Partiyasının üzvü Camal Quliyev institutun yaranması, fəaliyyəti, strukturu haqqında məlumat verib. İnstitutda çalışan işçilər arasında Yeni Azərbaycan Partiyası sıralarında təmsil olunan onlarla fəalın olduğunu bildirib. O, müvafiq ünvan üzrə həmin partiya üzvlərinin təmsil olunacağı yeni ərazi ilk partiya təşkilatının təsis edilməsi və partiyaya üzvlüklə bağlı çoxsaylı müraciətlərin olduğunu diqqətə çatdırıb.

Daha sonra yığıncağın gündəliyində duran birinci məsələ - ərazi ilk partiya təşkilatının təsis edilməsi məsələsi müzakirə edilərək, qərar qəbul edilib. Qərara əsasən, Binəqədi rayonu, Süleymanov Sani Axundov 73C ünvanında Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının yeni ərazi ilk partiya təşkilatı yaradılıb. Yığıncaqda təşkilati məsələlərə baxılıb, 7 nəfərdən ibarət idarə heyəti, sədr və sədr müavinləri seçilib. Partiya üzvlərinin yekdil qərarına əsasən Qida Təhlükəsizliyi İnstitutunun Hüquq və Tənzimləmə şöbəsinin hüquq sektorunun müdiri, Yeni Azərbaycan Partiyasının üzvü Aqil Sərdarov ərazi ilk partiya təşkilatının sədri seçilib. A.Sərdarov çıxış edərək, ona göstərilən etimada görə partiya üzvlərinə təşəkkürünü bildirib. Bu etimadı doğrultmaq üçün əzmlə çalışacağını diqqətə çatdırıb.

Yığıncaqda çıxış edən YAP Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov Yeni Azərbaycan Partiyasının və partiyanın rayon təşkilatının fəaliyyətindən bəhs edib. Rayon təşkilatı tərəfindən həyata keçirilən çoxsaylı tədbirlərdən danışıb. Dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə bütün sahələrdə əldə olunan uğurlara diqqət çəkərək iqtisadi, sosial islahatların əhəmiyyətli nəticələri barədə fikir bildirib. Təşkilat sədri bugünkü inkişafımızın gələcəkdə ölkəmizə daha böyük uğurlar qazandıracağına və atılan məqsədyönlü addımların mərkəzində vətəndaş amilinin hər zaman ön planda olduğunu söyləyib. R.Göyüşov yeni yaradılan ərazi ilk partiya təşkilatı barədə fikirlərini bölüşüb, onlara tövsiyələrini verib. Partiya üzvlərini bu təşəbbüslərinə görə təbrik edərək, onlara fəaliyyətlərində uğurlar arzulayıb, partiyanın fəaliyyətində yaxından iştirak etməyə çağırıb.

**ZÜMRÜD BAYRAMOVA**

# "Qətnamə AŞPA-da böhran yaşandığından xəbər verir"

***"Avropa Şurası Parlament Assambleyasının (AŞPA) Azərbaycanla bağlı son vaxtlar qəbul etdiyi qətnamələr bizim ümumilikdə son 15 il ərzində mütəmadi olaraq rastlaşdığımız qərəzli və Azərbaycan reallığına uyğun olmayan yanaşmalardan biridir". Bunu SİA-ya açıqlamasında "Bakı-Xəbər" qəzetinin Baş redaktoru, siyasi şərhçi Aydın Quliyev deyib.***



A.Quliyev bildirib ki, qəbul edilən qətnamə ölkədəki vəziyyətlə bağlı mötəbər mənbələrdən yox, adətən gedən proseslərə qərəzli və öz siyasi maraqları kontekstində yanaşan mənbələrdən götürülmüş məlumatlar əsasındadır. "Əslində bundan belə qənaətə gəlmək olar ki, bütün hallarda AŞPA-nın Azərbaycanla bağlı qəbul etdiyi sənədlər siyasi xarakterlidir və reallığa əks etdirmir. Ölkəmizdəki vəziyyətin beynəlxalq aləmə obyektiv şəkildə çıxarılmasında maraqlı olmayan dairələrdən alınan informasiyalar əsasında formalaşdırılıb. Məqsəd isə Azərbaycanın beynəlxalq manevr imkanlarını məhdudlaşdırmaq və ölkəmizin imicinə ləkə gətirməkdən ibarətdir".

Siyasi şərhçi qeyd edib ki, Azərbaycanda artıq çoxdan qapanmış hesab olunan siyasi məhbuslarla, guya medianın təqib olunması ilə bağlı qəbul etdiyi sənədlər və müzakirəyə çıxardığı hesabatlar hər zaman Azərbaycanın dünya miqyasında müəyyən pozitiv hərəkətlərin və irəliləyişlərin olduğu dövlərə təsadüf edib. "Yeni meydana çıxan bu tənqidi hesabatlar, qətnamələr heç də təsadüfi deyil və ölkəmizin dünya dövlətləri arasında mövqeyində müəyyən güclənmə hallarının yaraması ilə əlaqədardır. Bir neçə ay əvvəl Avropa Parlamentinin Azərbaycanın dünya miqyasında tanınmış sərhədlər çərçivəsində ərazi bütövlüyünü dəstəkləyən sənəd qəbul etməsi, habelə Cenevrədə Azərbaycan və Ermənistan XİN nazirlərinin demək olar ki, məzmunlu və substantiv əsaslarda danışıqlara başlaması və bu danışıqları pozmaq üçün Ermənistanın Baş naziri səviyyəsində apardığı mübarizələrin uğursuzluğa düçar olması, Azərbaycan diplomatiyasının nəaliyyətləri hesab olunmalıdır. Təsəvvür edin bu cür nəaliyyətlər əldə etdiyimiz vaxtda və belə nəaliyyətlərin olacağı şübhə doğurmayan bir ərəfədə Avropa Şurasının Parlament Assambleyası Azərbaycanla bağlı bu cür qətnamə qəbul edib. Deməli burada görünən və Azərbaycana arzu olunmaz bir dövlət kimi baxan qüvvələrin rolu var".

A.Quliyev vurğulayıb ki, AŞPA-da bir həqiqəti qəbul etməlidirlər ki, bu gün Azərbaycan Türkiyə ilə birgə Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində müstəsna dərəcədə vacib və əvəzolunmaz rol oynayan bir ölkədir. "Ölkənin inkişafı elə bir səviyyəyə çatıb ki, Azərbaycanın Avropa Şurasına lazım olması, Avropa Şurasının Azərbaycana lazım olmasından daha ağır çəkiyə malikdir. Rusiyanın da təcrübəsi göstərib ki, elə əhəmiyyətli ölkələrin incidilməsi, Avropa Şurası məkanında qərəzli taktikanın hədəfinə çevrilməsi sonda AŞPA-nın özünə ziyan vurub və Rusiyanın çıxarıldıqdan sonra yenidən qaytarılması üçün aparılan mübarizə əslində Avropa Şurasının taleyinin bir qrup qərəzli mərkəzlərin və qüvvələrin əlində olduğunu sübut edib. Həm də Azərbaycan nümunəsi ilə sübut olunub ki, AŞPA-nın taleyi, bu təşkilatın beynəlxalq nüfuzu haqqında düşünən, narahat olan qüvvələrin yox, düşən fürsətdən istifadə edərək Azərbaycan, Türkiyə kimi ölkələrdən qisas almaq istəyən qüvvələrin əlindədir. Bu da öz növbəsində çox pis haldır. Əslində Azərbaycanla bağlı qəbul olunmuş bu qətnamə dünyada AŞPA-nın bir təşkilat olaraq böhran prosesini dərinləşdirir".

## Seçki günü təcili yardım gücləndirilmiş rejimdə işləyəcək

Azərbaycanda fevralın 9-da keçiriləcək parlament seçkilərində təcili yardım gücləndirilmiş iş rejimində fəaliyyət göstərəcək. "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi"ndən (TƏBİB) AZƏRTAC-a bildiriblər ki, böyük seçki məntəqələrində təcili və təxirəsalınmaz tibbi yardım briqadaları işləyəcək.




Qeyd edilib ki, Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasının bütün əməkdaşları həmin gün iş başında olacaq. Cədvəllər tərtib olunub, dairə və məntəqə seçki komissiyalarında çalışanların, eləcə də vətəndaşların sağlamlığının qorunması, çağırışların dərhal icra olunması üçün operativ həkim briqadaları yaradılıb. Hər bir çağırışa çevik cavab veriləcək.

## Masallıda ölümlə nəticələnən yol qəzası olub

Masallıda ölümlə nəticələnən yol-nəqliyyat hadisəsi baş verib. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Masallı rayonunun Səmidxan kəndi ərazisində yolu keçən Qodman kənd sakini Təhmasib Həşimov Lənkəran şəhər sakini C.Tağıyevin idarə etdiyi "Ford" markalı avtomobillə vurulub. Nəticədə piyada hadisə yerində ölüb. Hadisə ilə bağlı Baş İstintaq və Təhqiqat İdarəsi tərəfindən araşdırma aparılır.

## Binəqədidə mağazadan və avtomobildən oğurluq edənlər yaxalanıblar



Binəqədi rayonunda mağazadan və avtomobildən pul, mobil telefon və maqnitofon oğurlamaqda şübhəli bilinən Gəncə şəhər sakini, əvvəllər məhkum olunmuş S.Pənahov rayon polis idarəsinin 5-ci polis bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində saxlanılıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Binəqədi rayonunda neft quyusunu elektrik enerjisi ilə təmin edən naqili kəsərək oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakinləri S.Orucov və S.Səfərov rayon polis idarəsinin 43-cü polis bölməsinin əməkdaşları tərəfindən yaxalanıblar. Hər iki faktla bağlı araşdırmalar aparılır.

## Türkiyədə 174 PKK terrorçusu məhv edilib

Türkiyə Silahlı Qüvvələrinin İraqın şimalında PKK terror təşkilatına qarşı keçirdiyi "Pəncə" əməliyyatı zamanı 174 terrorçu məhv edilib. Bu barədə Türkiyənin Milli Müdafiə Nazirliyindən bildirilib. Əməliyyatlar zamanı 83 mindən çox silah-sursat və terrorçulara aid 403 sığınacaq ələ keçirilib.

# Ömrünü elmə həsr etmiş fədakar alim, tanınmış pedaqoq və vətənpərvər ziyalı

## İqtisad elmləri doktoru, professor, YAP Yasamal rayon təşkilatının sədr müavini Rasim Nəbiyev 70 illik yubileyinin astanasındadır



Ziyalılar hər zaman ölkənin inkişafına, dövlətin qüdrətinin artmasına, gənc nəslin milli ideya və vətənpərvərlik ruhunda yetişməsinə xidmət edən fəaliyyətləri ilə fərqlənirlər. Xüsusilə də, həm cəmiyyətin tərəqqisinə, həm də elmin inkişafına dəyərli töhfələr verən insanların fəaliyyəti nümunə təşkil edir. Onlardan biri də bu il martın 1-də 70 yaşı tamam olacaq iqtisad elmləri doktoru, professor, Yeni Azərbaycan Partiyası Yasamal rayon təşkilatının sədr müavini Rasim Nəbiyevdir.

Onun həyat və fəaliyyətinə nəzər saldıqda belə bir qənaəti qətiyyətlə ifadə etmək olur: Rasim Nəbiyev ömrünü elmə həsr etmiş fədakar alim, tanınmış pedaqoq, öz fəaliyyətində xalqının və dövlətinin maraqlarını hər şeydən üstün tutan vətənpərvər ziyalıdır. Uzun müddət pedaqoji fəaliyyətlə məşğul olan R.Nəbiyev yüksəkixtisaslı kadrların hazırlanmasına bütün bilik və bacarığını sərf edib, öz dərin biliyini və zəngin təcrübəsini gələcək nəsillərə ötürməyi bacaran alim kimi bir məktəb yaradıb.

Professor Rasim Nəbiyev zəngin və şərəfli həyat yolunun bütün dövrlərində ölkəmizin milli maraqlarını, milli-mənəvi dəyərləri üstün tutaraq istər elmi-pedaqoji, istərsə də ictimai-siyasi sahədəki fəaliyyətində öz həyat salnaməsinin parlaq səhifələrini yaradıb. Onun mənalı ömür yolunun çox mühüm anlarını xatırlatmaq məqsədəmüvafiq olar.

Beləliklə, Rasim Əmir oğlu Nəbiyev 1950-ci il martın 1-də Bakı şəhərində ziyalı ailəsində anadan olub. Orta təhsilini Bakıdakı 172 saylı məktəbdə alıb, 3 il bu məktəbin komsomol təşkilatı katibi vəzifəsində çalışıb. Eyni zamanda, Bakıdakı 1 saylı musiqi məktəbində orta musiqi təhsili alıb.

1967-1971-ci illərdə D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda (indiki Azərbaycan Dövlət İqtisad Universiteti) təhsil alıb və bu ali məktəbi fərqlənmə diplomu ilə bitirib. İnstitut illərində gənc R.Nəbiyev elmi axtarışları ilə fərqləndiyindən “Marks təqaüdçüsü” adına layiq görülüb, Tələbə Elmi Cəmiyyətinin sədri seçilib. Hələ tələbə ikən Moskvada keçirilən Elm günlərində R.Nəbiyev Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin qızıl medalına layiq görülüb.

Rasim Nəbiyev 1971-ci ildə təhsil aldığı institutun aspiranturasının əyani şöbəsinə daxil olub, bir il sonra hərbi xidmətə çağırılıb. Ordu sıralarından qayıtdıqdan sonra təhsilini davam etdirib. Pedaqoji-əmək fəaliyyətinə 1975-ci ilin yanvar ayında indiki Bakı Dövlət Universitetində müəllim kimi başlayan Rasim Nəbiyev qısa müddətdə universitetin Böyük Elmi Şurasının üzvü və fakültə dekanı seçilib, dövlət imtahan komissiyalarında sədr, digər şəhərlərə tələbə qəbulu üzrə komissiyanın məsul katibi, universitet partiya komitəsi nəzarət komissiyasının sədri kimi vəzifələrdə çalışıb. 1983-cü il onun həyatında xüsusilə əlamətdar olub. Həmin il Rasim müəllim Tbilisi Dövlət Universitetində çox böyük uğurla namizədlik dissertasiyasını müdafiə edib.

R.Nəbiyev pedoqoji və ictimai fəaliyyətini məntiqi ardıcıllıqla davam etdirərək respublikamızın siyasi həyatında səmərəli fəaliyyət göstərən ziyalılarımızla birlikdə həmişə milli maraqlarımıza xidmət edib. 1988-ci ilin əvvəllərindən etibarən Dağlıq Qarabağ problemi ilə bağlı keçirilən ilk elmi konfransların təşəbbüskarı və təşkilatçısı kimi geniş fəaliyyəti BDU Elmi Şurası tərəfindən yüksək qiymətləndirilib. O, ölkəmizin görkəmli dövlət və elm xadimləri olan Murtuz Ələsgərov, Yəhya Məmmədov, Teymur Vəliyev kimi ziyalılarla birlikdə erməni akademik Aqanbekyanın 1987-ci ilin oktyabrında Dağlıq Qarabağla əlaqədar Fransa mətbuatındakı yazılarının yalan və böhtan xarakterli mahiyyətinin ifşa olunmasında ziyalı və vətəndaşlıq borcunu şərəflə yerinə yetirib.

Rasim Nəbiyev BDU-da diplomat ixtisası üzrə kadrların hazırlanmasında da müstəsna xidmətlər göstərib. O, BDU-nun rektorluğu və nüfuzlu müəllimləri ilə bir sırada ölkənin əsas ali təhsil müəssisəsində beynəlxalq münasibətlər, beynəlxalq hüquq, beynəlxalq iqtisadi münasibətlər, fəlsəfə və sosiologiya ixtisasları üzrə fakültələrin açılmasına səy göstərib. Bu təkliflər universitet rəhbərliyi tərəfindən dəstəkləndikdən sonra universitetin Beynəlxalq münasibətlər, Beynəlxalq hüquq, Beynəlxalq iqtisadi münasibətlər, Fəlsəfə və sosiologiya ixtisaslarının açılması üçün bir neçə il fasiləsiz olaraq çalışıb. Buna nail olduqdan sonra BDU-da Beynəlxalq münasibətlər və Beynəlxalq hüquq, eləcə də, Fəlsəfə və sosial-siyasi elmlər fakültələrinin yaradılması və təşkilində öz xidmətlərini göstərib.

Gənc alimin təşəbbüsünün universitet rəhbərliyi tərəfindən dəstəklənməsi sayəsində Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun alimləri Y.A.Yevseyev, F.İ.Puqaçov, V.V.Qladışev, Moskva Dövlət Maliyyə Akademiyasının professorları V.N.Şenayev, A.T.Qryaznova və başqaları bir neçə dəfə BDU-da oldular, onlar universitetin elmi-pedaqoji potensialı, tədris-metodik və maddi-texniki bazasının diplomat kadrların hazırlanmasına cavab verdiyini əsas götürərək ixtisasların açılması təşəbbüsünü yüksək qiymətləndiriblər.

Azərbaycan təhsilinin inkişafındakı xidmətləri nəzərə alınaraq Rasim Nəbiyev BDU Elmi Şurası tərəfindən universitetin nəzdində yaradılan İctimai Siyasi Kollecə direktor vəzifəsinə məsləhət görülüb. Bir neçə il sonra bu təhsil müəssisəsi Rasim Nəbiyevin rəhbərliyi ilə Azərbaycan İctimai-Siyasi Universiteti kimi fəaliyyət göstərib.

Rasim Nəbiyev, həmçinin, Azərbaycan iqtisad elminin inkişafına mühüm töhfələr verib. Onun bazar iqtisadiyyatının təsərrüfatçılıq metodlarının araşdırılması ilə bağlı əsərləri geniş oxucu kütləsi və iqtisadi sahədə çalışan mütəxəssislər tərəfindən böyük maraqla qarşılanıb. İqtisadi nəzəriyyənin mühüm problemlərinə həsr olunan “Azərbaycanın keçid dövründə kommersiya hesabatının nəzəri və praktik problemləri” monoqrafiyası Rasim Nəbiyevin doktorluq işi kimi olduqca qiymətlidir. 1 monoqrafiyanın, 2 kitabın, 50-dən çox məqalənin müəllifi olan Rasim müəllim hazırda “İqtisadi inkişafın Azərbaycan modeli” adlı kitab üzərində işləyir. Azərbaycan Dövlət İqtisad Universitetinin nəşr etdirdiyi “Azərbaycanın iqtisadi inkişafının Heydər Əliyev strategiyası” kitabında “Heydər Əliyevin neft strategiyası Azərbaycanın iqtisadi müstəqilliyinin əsasıdır” adlı məqaləsi çap olunub. Eləcə də Təhsil Nazirliyi və Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən keçirilən “Azərbaycanın iqtisadi inkişaf strategiyası” mövzusunda konfransın materiallarının çap olunduğu topluda “Rəqabətqabiliyyətli milli iqtisadiyyatın formalaşmasında qeyri-neft sektorunun yeri” adlı məqaləsi dərc olunub. Bu məqalələrdə professor Rasim Nəbiyev Azərbaycanın iqtisadi inkişafının dərin elmi təhlilini verib.

2003-cü ildə Azərbaycan Dövlət İqtisad Universitetinin Müdafiə Şurasında doktorluq dissertasiyasını müvəffəqiyyətlə müdafiə edən Rasim Nəbiyev 2004-2009-cu illərdə Azərbaycan Respublikası Prezidenti Yanında Ali Attestasiya Komissiyasının iqtisad və hüquq elmləri üzrə Ekspert Şurasının sədri kimi səmərəli fəaliyyət göstərib. 6 nəfər xarici ölkə vətəndaşı olan aspirant və dissertanta elmi rəhbərlik edib. Bunlarla yanaşı, 2014-cü ildən AMEA-nın Koordinasiya Şurasının üzvüdür. 2014-cü ildən ADİU-da fəaliyyət göstərən Müdafiə Şurasının, Dövlət İmtahan Komissiyasının üzvüdür. Hazırda Azərbaycan Dövlət İqtisad Universitetinin tam ştatda professorudur.



Rasim Nəbiyev ölkənin ictimai-siyasi həyatında da fərqlənən ziyalılarımızdandır. O, 1994-cü ildən Yeni Azərbaycan Partiyasının üzvüdür. 1998-ci ildən etibarən YAP Yasamal rayon təşkilatı idarə heyətinin üzvü və hazırda rayon təşkilatının sədr müavinidir. 2010-cu ildə parlament seçkilərində 15 saylı Yasamal birinci seçki dairəsindən YAP-ın namizədi kimi iştirak edib. Yeni Azərbaycan Partiyasının I, II, III, IV və V qurultaylarının nümayəndəsi seçilən R.Nəbiyev prezident, parlament və bələdiyyə seçkilərində, Yeni Azərbaycan

Partiyasının keçirdiyi bir sıra tədbirlərdə fəal iştirakı ilə nümunə göstərilir. Yasamal rayon Ziyalılar Cəmiyyətinin sədri olan, ümummilli məsələlərdə daim prinsipial mövqedən çıxış edən Rasim Nəbiyevi cəmiyyətə daha yaxşı tanıdan amillərdən biri onun Heydər Əliyev ideyalarına, Azərbaycan Prezidenti İlham Əliyevin siyasətinə sadiq olan şəxsiyyət kimi çıxış etməsidir. Professor R.Nəbiyev Ümummilli Lider Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərini hər zaman geniş auditoriyalarda, toplantılar və konfranslarda ictimaiyyətin diqqətinə çatdırır, Heydər Əliyev irsinin tədqiqi və təbliğinin əhəmiyyətini xüsusi vurğulayır.

Elmi-pedaqoji və ictimai-siyasi sahədəki fəaliyyəti ilə yanaşı, xeyriyyəçilik missiyasını da ləyaqətlə yerinə yetirən professor Rasim Nəbiyev şəhid və qaçqın ailələrinə, qocalara və əlillərə maddi və mənəvi kömək göstərilməsini həmişə savab iş sayıb. O, respublikamızda zəruri ehtiyac duyulan onlarca elmi əsərin, dərsliklərin çap olunmasına himayədarlıq edib. Bu əsərlərdən biri də “Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti”dir. Bu əsərin giriş hissəsində akademik Budaq Budaqovun yazdığı sözləri xatırlatmaq yerinə düşər: “Bu əsər... onun ilkin variantında yazılması üçün lazım olan maliyyə xərclərini öhdəsinə götürmüş Rasim Nəbiyevin qayğısı sayəsində ortaya çıxmışdır. R.Nəbiyevin yüksək vətəndaşlıq qeyrətini gələcək nəsillər, şübhəsiz ki, minnətdarlıqla xatırlayacaqlar”.

Təhsil sahəsində və ictimai fəaliyyətində qazandığı uğurlara görə Rasim Nəbiyev Yusif Məmmədəliyev adına mükafata, Təhsil Nazirliyinin və YAP Mərkəzi Aparatının fəxri fərmanlarına layiq görülüb, dəfələrlə təşəkkürnamə alıb. Eyni zamanda, 2013-cü ildə Türk Dünyası Araşdırmaları Uluslararası Elmlər Akademiyasının akademik üzvü seçilib, Uluslararası Ödül Komitəsinin 10 iyun 2013-cü il tarixli qərarı ilə türk dünyası elmi və təhsili qarşısındakı xidmətlərinə görə “Uluslararası Altın Ulduz” medalı ilə təltif olunub.

Rasim müəllimin ən böyük mükafatı isə yetişdirdiyi tələbələrin və onların valideynlərinin hörməti, məhəbbətidir. Onun xətrini iş yerində, ictimaiyyət arasında, ailəsində, dostlarının yanında olduqca əziz tutur, hörmətini saxlayırlar. 3 övlad sahibi olan Rasim Nəbiyev həm də qayğıkeş ata, gözəl ailə başçısıdır.

Beləliklə, həyatının mənasını xalqına xidmətdə görən nüfuzlu elm fədaisi Rasim Nəbiyev 70 illik yubileyi ərəfəsində, sözün əsl mənasında, ömrünün kamillik zirvəsindədir. Xeyirxahlıq, alicənablıq, insanpərvərlik, həssaslıq, səmimiyyət kimi ali insani keyfiyyətlərə malik olan professor Rasim Nəbiyev həmkarları, tələbələri, onu tanıyanlar tərəfindən daim sevilib, sevilir və seviləcək. Zəngin mənəviyyatı, geniş dünyagörüşü və nümunəvi ağsaqqal davranışı ilə hər zaman fərqlənən dəyərli ziyalımız Rasim Nəbiyevi 70 illik yubileyi münasibətilə təbrik edir, ona möhkəm cansağlığı, elmi, ictimai-siyasi fəaliyyətində yeni və daha böyük nailiyyətlər arzu edirik!

**Nardar BAYRAMLI**

***Beynəlxalq aləmdə siyasi nüfuzunun artması, iqtisadi yüksəlişi, regionda reallaşdırdığı qlobal layihələr, ümumiyyətlə, aparılan düzgün siyasət Azərbaycanı söz sahibinə çevirib. Birmənalı şəkildə demək olar ki, indi ölkəmiz sözün əsl mənasında regionun lider dövlətidir. Çünki Azərbaycanın iqtisadi yüksəlişi, artan imkanları digərləri ilə müqaisə edilməyəcək dərəcədədir və məhz bu baxımdan daha üstün mövqelərə malikdir. Bununla yanaşı, qanunsuz şəkildə zəbt olunan Azərbaycan torpaqları ilə, Dağlıq Qarabağla bağlı məsələ hələ də öz həllini gözləyir və sözsüz ki, ölkəmizin üstün mövqeyə malik olması məsələnin həllinə öz müsbət təsirini göstərməkdədir.***

# İranın Ermənistanla bağlı səyləri əbəsdir



Məsələ burasındadır ki, ölkəmizin hər sahədə inkişafı fonunda, işğalçı Ermənistanın da hər mənada geriləməsi diqqətdən yayına bilməz. İşğalçı ölkənin indi hansı acınacaqlı durumda olduğu təkzibedilməz reallıqdır. Ermənistanın səfalət içərisində olması heç də təsadüfi deyil və bunu onların özləri ilə yanaşı regionun digər qonşu dövlətləri də, bütün dünya ictimaiyyəti də yaxşı bilir. Yaxşı bilir ki, məhz Azərbaycanla əlaqələrini pozan Ermənistan bunun nəticəsi olaraq regionda marginallaşmış bir duruma düşüb.

Azərbaycanın neft strategiyası, reallaşdırdığı qlobal layihələri artdıqca, ölkəmiz dinamik şəkildə inkişaf etdikcə Ermənistanın küncə qısıldığının şahidi oluruq. Şahidi oluruq ki, işğalçı ölkə məhz işğalçılıq siyasətinə görə bütün layihələrdən, ələlxüsus Azərbaycana məxsus layihələrdən kənarda qalır və bir sözlə, imkanlardan məhrum olur. Ölkəmiz tranzit qovşağına çevrildiyi halda, Ermənistan bu layihələrdə iştirak eməkdən belə məhrumdur. Məsələn, reallaşdırılan layihələrdə region ölkələri iştirak etsə də Ermənistan bundan kənarda qaldı. Bir növ, sıxışdırıldı və küncə qısıldı.

Əslində, sivil mübarizə yolunu seçən Azərbaycan beləliklə də, öz rəqibini sarsıda, onu öz haqsız iddialarından geri çəkilməyə bir növ sivil qaydada məcbur edə bildi və bu, son zamanlar Ermənistan rəhbərliyinin qətiyyətsizliyində, çaşqınlığında, ölkə vətəndaşlarından tutmuş siyasi partiyaların dövlət əleyhinə fəaliyyətlərinə qədər hər yerdə özünü büruzə verir. İşğalçı ölkədə hökm sürən xaos, səlahiyyətlilərə, ələlxüsus hakimiyyətə olan inamsızlıq, get-gedə daha da qızışmaqda olan etirazlar və bir sıra bu kimi faktlar sadalananları təsdiq edir ki, bu da Azərbaycanın düzgün yolda olmasından, uğurlu, məqsədyönlü, nəticəyə hesablanmış fəaliyyətindən xəbər verir.

Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, belə bir şəraitdə işğalçı ölkəyə dəstək də verilir və məsələnin daha da uzanması elə, məhz bu dəstəyə görədir. Əks halda, işğalçı ölkə çoxdan təslim olardı.

Məsələ burasındadır ki, işğalçı Ermənistana təkcə erməni lobbisi yardım etmir. Yardım edənlər arasında bir sıra Avropa dövlətlərindən tutmuş, region ölkələrinə qədər də var. Təbii ki, "Qoca qitə" ölkələrinin, Qərbin regionda maraqlarını da başa düşmək çətin deyil və onların Ermənistandan vasitə kimi istifadə edərək, regionda mövqelərini möhkəmləndirmək arzusu da anlaşılandır. Onsuz da Ermənistan öz mövcudluğu dövründə alət olmağa alışqandır və məhz elə bunun sayəsində də kimlərə isə lazımlıdır.

Qeyd edək ki, Ermənistan kimi bir işğalçı dövlətə bəzən qonşu ölkələrin, region ölkələrinin yardımının da şahidi oluruq. Ələlxüsus, İslam Respublikası olan bir dövlətin Ermənistana köməyini təəssüf hissi ilə qeyd etmək məcburiyyətindəyik. Bir İslam Respublikasının müsəlmanların qətlini törədən xristian dövlətinə nəinki yardımı, hətta bu işğalçı dövlətlə əlaqələri belə anlaşılmazdır. Daha dəqiq desək, İranın Ermənistana yardımları, dəstəyi heç bir məntiqə sığmır.

Azərbaycan tarix boyu İranla mehriban qonşuluq siyasəti aparıb və bir müsəlman dövlətinə münasibəti də əlbəttə ki, Qərbə olan münasibətindən müsbət istiqamətdə hər zaman kəskin şəkildə fərqlənib. Bu baxımdan, Azərbaycanın İran tərəfindən də gözləntiləri eynidir və düşünürük ki, İran - Azərbaycanın münasibətlərinə adekvat cavab verməlidir. Halbuki, bəzi hallarda bunun belə olmadığını müşahidə edirik və təəssüf doğuran da məhz budur. Təəssüf və hətta təəccüb doğuran məsələn, İranın Ermənistan ilə gömrük məntəqəsində və azad iqtisadi zonalarda tikinti-bərpa işlərini fəallaşdırmasıdır. "Nurdüz" sərhəd nəzarət-buraxılış məntəqəsinin yaxınlığında bir sıra ticarət obyektləri inşa edilməkdədir və onlardan bəziləri artıq fəaliyyətə də başlayıb ki, məhz bu özü də təəssüf hissi, həmçinin təəccüb doğurur.

2019-cu il noyabrın 27-də İranın Ticarət Palatasının təşəbbüsü ilə İrəvanda "İran-Avrasiya ticarət mərkəzi" açıldı. Görəsən, bu ticarət mərkəzinin açılışında məqsəd nədir? Bəllidir ki, palatanın əsas fəaliyyət istiqaməti İran mallarının Avrasiya məkanında rüsum tətbiq olunmadan satışı üçün müvafiq şəraitin yaradılmasıdır. Lakin, bu mərkəz İrəvanda niyə açılır? İrəvan ticarət qovşağı deyil, potensial bazar deyil, heç imkanlarından da söz açıla bilməz. Axı, niyə İrəvanda rüsum tətbiq olunmadan satış üçün müvafiq şərait yaradılır və bunun İran üçün nə kimi faydası ola bilər?

İran Avrasiya İqtisadi İttifaqı ilə iqtisadi əməkdaşlığa böyük ümidlər bəsləyə bilər. Amma, İran öz ərazisindəki "Araz AİZ" və Ermənistandakı "Meqri" AİZ"-nin fəaliyyətinin bu istiqamətdə təsirli olacağını düşünürsə bərk yanılır. Ermənistanın ağır iqtisadi vəziyyətdə olması, "Meqri AİZ"-in faktiki fəaliyyətə hazır vəziyyətdə olmaması fonunda İran nəyə ümid edə bilər?

Əslində, heç nəyə ümid edə bilməz və heç etmir də. Özünə aiddir deyə, İran bu sadalananları digərlərindən daha yaxşı başa düşür və bu dövlətin nəyə isə ümid etməsi heç inandırıcı görünmür.

Üstəlik, Ermənistanın Avrasiya İqtisadi İttifaqı ilə birbaşa quru sərhəddinin olmaması özü tutarlı bir faktdır və bu fakt İranın bu istiqamətdə səylərinin əbəs yerə olduğunu bir daha təsdiq edir. Heç çür inanmaq olmur ki, İran tərəfi sadalanan faktlardan, qeyd olunan bir sıra məqamlardan xəbərsiz olsun. Belə olan halda, Ermənistanda, İrəvanda "İran-Avrasiya ticarət mərkəzi" açılması nəyə lazımdır sualı İranı da maraqlandırmaya bilməzdi və bu barədə düşünülməməsi inandırıcı görünmür.

İranla Ermənistan arasında 2018-ci ilin mart, 2019-cu ilin mart ayları ərzində ümumi ticarət dövriyyəsinin cəmi 183,3 milyon ABŞ dolları olması faktını demək belə kifayətdir ki, İranın səylərinin əbəs yerə olduğu sübut edilsin. Qeyd edildiyi kimi bunu, məhz bu göstəricini İran hamıdan yaxşı bilirsə, onda Ermənistanda, İrəvanda açılan "İran-Avrasiya ticarət mərkəzi" nəyə lazımdır, yaxud nəyə xidmət edir?

BMT kimi bir beynəlxalq qurumun Ermənistan tərəfinin zəbt etdiyi Azərbaycan torpaqlarını qeyd-şərtsiz boşaltması tələbini özündə ehtiva edən qətnamələrinin, Azərbaycanın isə bu müddət ərzində haqlı tələblərlə çıxış edərək, ərazi bütövlüyünün qorunması kimi prinsipial mövqelərini ortaya qoyması və bu yoldan çəkinməyəcəyini bəyan etməsinin fonunda İrandan gözləntilərin əksini müşahidə etmək heç də arzuolunan və başadüşülən deyil. İllərdir davam edən münaqişədə Azərbaycan hər zaman beynəlxalq hüquqi prinsipləri rəhbər tutduğunu bütün dünya dövlətləri, eləcə də, beynəlxalq təşkilatlar etiraf etmək məcburiyyətindədirlərsə, İrana nə gəlib? İran bunu görməməzlikdən gələ bilməz axı. İran tərəfi bilmirmi ki, Ermənistan tərəfi vətəndaşlarımıza qarşı soyqırımı siyasəti yürüdüb, zəbt etdiyi ərazilərdə qırğınlar, qətllər törədib, insanları yurd-yuvalarından didərgin düşməyə məcbur edib, ərazilərimizdə maddi-mədəniyyət abidələrini dağıdıb və bir sıra vandallıq əməlləri törədib, yenə də Azərbaycan tərəfi münaqişənin sülh yolu ilə həllini dəstəkləyib? Yəni, İran tərəfi kimin haqlı, kimin haqsız olduğunu bilmir, yoxsa buna məhəl qoymur? Eyni zamanda, bu İslam Respublikası ermənilərin müsəlmanları hədəfə almasından, müsəlmanları təhqir etməsindən, islam dininə etdikləri hörmətsizlikdən də xəbərsizdir? Qonşu Azərbaycanın vətəndaşlarının qətlinə, islam dinini xristianın təhqir etməsinə hansı qonşu müsəlman dövləti laqeid yanaşar və terrorçu xristian ölkə ilə əlaqələrə hansı müəlman ölkəsi yer ayırar? İran tərəfi bilməlidir və əslində, bilir də ki, ermənilərin ipinin üstünə yük yığılan deyil və bir zaman böyük qardaş adlandırdıqları rusları bir anda Qərbə satdılarsa, deməli, bu məsələdə İran da istisnalıq təşkil edə bilməzdi. Bir sözlə, İran tərəfi bilməlidir ki, İranın Ermənistanla bağlı səyləri əbəsdir.

***İnam HACIYEV***

# Gürcüstan-Rusiya avtomagistralı tam bağlanıb



Güclü külək, çovğun və qatı duman səbəbindən Gürcüstandan Rusiyaya gedən və beynəlxalq əhəmiyyətli yeganə avtomobil yolu fevralın 7-də bütün növ avtomobillər üçün bağlanıb. Bu barədə Gürcüstanın Regional İnkişaf və İnfrastruktur Nazirliyi məlumat yayıb. Məlumatda deyilir ki, Gürcüstandan Rusiyaya gedən Mtsxeta-Stepantsminda-Lars (Hərbi Gürcüstan yolu) magistralının Qudauri-Kobi hissəsində güclü külək, çovğun, qatı duman və bəzi hissələrdə yolun buz bağlaması ciddi problemlər yaradıb.

# Məcburi cəlbetmə anlayışı

***Psixoloji məcburetmə dedikdə, qurbanın digər insanlarla münasibətləri, bir qrup həmyaşıdı və ya ailə tərəfindən rədd edilmə və ya qınanma hədələri yaxud oğlan dostu və ya tərəfdaşı hesab edilən şəxsin qəzəb və ya narazılığı yaxud hədə-qorxu gəlmə başa düşülə bilər. Psixoloji məcburetmənin anlayışının verilməsində mövcud çətinlik psixoloji sui-istifadə və məcburetmə hallarının digər insanlara təsir göstərmək üçün psixoloji vasitələrdən necə istifadə edilə bilinməsini başa düşməkdə çətinlik çəkən bir çox insanlardan gizlədilməsini daha asan edə bilər. 64 Bunlara qurbanların öz ərləri oğlan dostları tərəfindən xarici ölkələrə aparıldığı və sonra istismar məqsədilə insan alverçilərinə satıldığı hallar aiddir.***

Niderlandda "sevgili oğlan" hadisəsi on beş ildən çoxdur ki, bir problem kimi mövcuddur. "sevgili oğlan" hadisəsi, gənc, müdafiəsiz qızlara kömək edən, onların "oğlan dostuna" çevrilən və sonra isə onları fahişəliyə məcbur edən kişilər tərəfindən qayğının göstərilməsidir. Qurban ona ev və yaxşı ödənişli işlərlə bağlı yalançı vədlər verilməklə və ya daha yaxşı həyat və evlənmə vəd edilərək xarici ölkələrə aparılma ilə psixoloji məcburetmə formasında cəlb olunur. Qurbanların çoxu azyaşlılardır.

Cəzaların müddəti səkkiz aydan yeddi il altı ayadək dəyişirdi. Vurulan ziyana görə qurbanlara kompensasiya, 50,000 avroya qədər ilkin ödənişlərlə, qismən ödənilmişdir. İşdə müdafiə tərəfi ittiham aktında insan alveri ilə bağlı bəraətin verilməli olduğunu iddia etmişdir.

Ümumiyyətlə, iddia olunurdu ki:

- bu qadınlar müttəhimlə tanış olanda artıq fahişəliklə məşğul olurdular;
- onlar fahişəliklə həmişə öz arzuları ilə məşğul olmuşlar;
- qadınların öz qazanclarını müttəhimlə bölüşmələrinin və ona ödənişlər etmələrinin səbəbi budur ki, onlar bu şəxslə emosional münasibətlərə malik olmuşlar.

İqtisadi məcburetmə qurbanın böyük məbləğlərdə ödənişlər etməyə məcbur edildiyi, məvaciblərdən böyük məbləğlərin tutulduğu və ya ümumiyyətlə, heç nə ödənilmədiyi hallardır. Bura şəxs üçün faktiki və ya iddia edilən borcların ödənilməsini qeyri-mümkün etməklə, onun asılılıqda saxlanıldığı borc asılılığı da aiddir. Borc asılılığını insan alveri halları ilə əlaqələndirmək çətin ola bilər və ola bilsin ki, borc asılılığı halları ağır cinayət hesab edilməsin. Belə işlərdə həmişə zorakılıq və ya hərəkət azadlığından məhrumetmə olmur və onlar ödənilməyən və ya böyük məbləğlərdə tutulmalarla ödənilən məvaciblərlə bağlı olur. BƏT tərəfindən əməli indikatorları müəyyənləşdirmək üçün Delfi tədqiqat layihəsində aparılan araşdırmadan sonra aşağıdakı indikatorlar cəlbetmə mərhələsində və potensial qurbanın təyinat yerinə çatdığı zaman məcburetmə halını göstərə bilər.

BƏT-in yaşlı insanların əməyinin istismarı ilə bağlı müəyyənləşdirdiyi əməli indikatorlar

Məcburi cəlbetmə indikatorları

Güclü indikator

X Qurbanlara qarşı zorakılıq

Orta indikatorlar

X Oğurlanma, məcburi nikah, məcburi övladlığa götürülmə və ya qurbanı satma;

X Sənədlərin alınması;

X Borc asılılığı;

X Təcridetmə, azadlığı məhdudlaşdırma və ya nəzarət altına alma;

X Orqanlara xəbər verməklə hədələmə;

X Qurbana qarşı zorakılıqla hədələmələr;

X Ailəyə, icmaya və ya insanlara xəbər verməklə hədələmələr;

X Ailəyə qarşı zorakılıq (hədələmələr və ya tətbiqetmə);

X Məvacibləri əlindən alma.

Təyinat yerində məcburetmə indikatorları

Güclü indikatorlar

X Sənədlərin alınması;

X Borc asılılığı;

X Təcridetmə, azadlığı məhdudlaşdırma və ya nəzarət altına alma;

X Qurbanlara qarşı zorakılıq.

Orta indikatorlar

X Qanunsuz / cinayətkar əməlləri törətməyə məcbur edilmə;

X Məcburi tapşırıqlar və ya müştərilər;

X Həmyaşıdlara qarşı müəyyən hərəkətlər etməyə məcbur edilmə;

X Orqanlara, ailəyə və sairəyə yalan danışmağa məcbur edilmə;

X Orqanlara xəbər verməklə hədələmə;

X Daha pis iş şəraiti yaratmaqla hədələmə;

X Qurbana qarşı zorakılıqla hədələmələr;

X Güclü təsir altında olma;

X Ailəyə qarşı zorakılıq (hədələmələr və ya tətbiq etmə);

X Məvacibləri əlindən alma.

Zəif indikator

X Ailəyə, icmaya və ya insanlara xəbər verməklə hədələmələr.

Borc asılılığı normal halda həmin xidmətlərin dəyəri borcların aradan qaldırılması üçün tətbiq edilmədiyi halda yaxud bu xidmətlərin göstərilmə müddəti və onların xüsusiyyətləri uyğun şəkildə məhdudlaşdırılmadıqda və ya təyin olunmadıqda, borclu şəxs tərəfindən onun öz şəxsi və ya onun nəzarəti altında olan şəxsin xidmətlərinin göstərilmə vədindən irəli gələn vəziyyət və ya şərait" kimi anlaşılır. İnsan alverinin qurbanları çox vaxt borc asılılığına məruz qalırlar. İnsan alverçisi qurbana səfərin təşkil edilməsində, iş və qalmaq üçün yer tapmaqda kömək edə və sonra ondan göstərilən xidmətlərə görə borcu "işləməklə ödəməyi" tələb edə bilər.

Səciyyəvi olaraq, şəxs, mahiyyətcə istismar xarakterli şərtləri qəbul etmək üçün aldadıla bilər, belə ki, qanunsuz aşağı məvaciblər və qanunsuz yüksək faiz dərəcələri, insan alverçisinə iddiaya görə ödənilməli olan məbləğin ödənilməsini faktiki mümkünsüz edən borcun artması vəziyyətini yaradır.

Borc asılılığı habelə yol sənədlərini əlindən alma, zorakılıq və onlara və ya onların ailələrinə qarşı zorakılıq hədələri ilə insan alverinə məruz qalan şəxslərin bu vəziyyətdən çıxmasının qarşısı alına bilər. Oğurlanma kiməsə güc tətbiq etməklə və ya yalandan inandırmaqla başqa yerə aparmaqdır. Uşağın qaçırılması ilə bağlı işlədildikdə, bu söz himayəçilik hüquqlarını pozaraq uşağın qaçırılması və ya saxlanması anlaşılır. İnsan alveri ilə bağlı oğurlanmanın hər hansı bir ayrıca anlayışı yoxdur. Dələduzluq; dələduzluq anlayışına görülməli işlərin və ya göstərilməli xidmətlərin xüsusiyyətləri barədə şəxsi sözlərlə və ya davranışla yanlış yola yönəltmə kimi başa düşülən aldatma hərəkətləri aiddir (qanuni iş, iş şəraiti, şəxsin öz yaşayış yerini sərbəst şəkildə tərk edə biləcəyi hüdudlarla bağlı vədlər və şəxsin istismar olunduğu digər şəraitlər). BƏT-in əməyin istismarı üçün yaşlı insanların alveri ilə bağlı müəyyənləşdirdiyi əməli indikatorlar. Aldatma yolu ilə cəlb etmə indikatorları.

Güclü indikator

X İşin mahiyyəti, yeri və işəgötürən barədə aldanılma.

Orta indikatorlar

X İş şəraiti barədə aldanılma;

X Əmək müqaviləsinin məzmunu və qanuniliyi ilə barədə aldanılma;

X Ailənin yenidən birləşəcəyi barədə aldanılma;

X Mənzil və yaşayış şəraiti barədə aldanılma;

X Hüquqi sənədləşmə və ya qanuni miqrant statusunun alınması barədə aldanılma;

X Səyahət və seçim şərtləri barədə aldanılma;

X Əmək haqları / qazanc barədə aldanılma;

X Nikah və ya övladlığa götürmə vədləri ilə aldanılma.

Zəif indikator

X Təhsil imkanlarından yararlanma barədə aldanılma.

UNODC-nin İnsan alveri əleyhinə Nümunəvi Qanunda aldatmanın anlayışı aşağıdakı kimi verilir:

5 (1) (f) "Aldatma"dedikdə şəxsi aldatmaq niyyətilə hər hansı bir davranış başa düşülür;

yaxud

"Aldatma" dedikdə sözlərlə və ya davranışla [fakta və ya qanuna münasibətdə] (aşağıdakılara münasibətdə) hər hansı bir şəkildə aldatma başa düşülür:

(I) Görülməli işin və ya göstərilməli xidmətlərin mahiyyəti;

(II) İş şəraiti;

(III) Şəxsin öz yaşayış yerini sərbəst şəkildə tərk edə biləcəyi hüdudlar; və ya

(IV) Şəxsin istismar olunduğu digər şəraitlər

Aldatma hallarına istismar məqsədilə işçiləri məcburi əməyə cəlb edərkən yalan və ya qeyri-dəqiq və ya yanlış informasiya vermə yaxud yalan iş təklifi aiddir. BMqT-nin Avropa və Avrasiya regionunda yaşlı kişilərin alveri ilə bağlı məlumatlarına əsasən, onlar çox vaxt şəxsi əlaqələri vasitəsilə cəlb olunurlar yaxud şəxsi əlaqə vasitəsilə məşğulluq agentliyinə yönəldilirlər. Qəzetlərdə verilən elanlar cəlbetmənin ən çox yayılmış ikinci metodudur. İnsan alverinin kişi qurbanları çox vaxt onların işlə təmin olunmasına və daşınmanın təşkilinə görə vasitəçiyə ödəniş etməli olurlar. Başqa araşdırmalarda qeyd olunduğu kimi, qazanc məqsədilə cinsi xidmətlər göstərmək üçün insan alverinə məruz qalan qadınlar çox vaxt vasitəçilərə haqq vermirlər və vasitəçilərin onlara göstərdikləri xidmətlər onların ödəməli olduqları borc kimi saxlanılır.

2005-ci ildə Polşa vətəndaşları Baridə Polşanın fəxri konsulluğundan onların öz vətənlərinə qayıtmalarına kömək və dəstək istəməyə başlamışlar.Onlar bildirmişlər ki, onlar İtaliyada Apulia regionunda işləmək üçün bu ölkəyə gəlmişlər. Onlara yaxşı iş şəraiti və məvaciblər vəd olunmuşdur, lakin onlar heç bir ödəniş olmadan yaxud cüzi ödənişlərə öz güclərindən artıq işləməyə məcbur edilmiş və onlar minimal, sosial standartlardan aşağı şəraitdə yaşamışlar.

Onlar aldanılaraq və cəlbedici iş təklifi ilə cəlb olunmuşlar. Polşada seçim şəbəkəsi və Apuliada işi təşkil edən tərəf arasında güclü əlaqə olmuşdur. Onları bu işə cəlb edənlər milli və yerli qəzetlər vasitəsilə və İnternetdə elanlar verməklə və ya gələcək qurbanlarla birbaşa əlaqələr vasitəsilə cəlbedici və yaxşı ödənişli iş təklif etmişlər.

Hər iki ölkənin polis qüvvələri, Apulia regionundakı əmək düşərgələrində "kölə" kimi saxlanılan və həmin ərazidə fermalarda işləməyə məcbur edilən insan alverinin 113 qurbanını azad etmişlər.

Polşa polisi tərəfindən təqdimat - Varşava 2006-cı il

Səlahiyyətdən yaxud müdafiəsizlik vəziyyətindən sui-istifadə dedikdə şəxsin istismara tabe olmaqdan başqa real və məqbul alternativ variantının olmadığı hər hansı vəziyyət başa düşülür. BMT-nin İnsan Alverinə dair Protokol layihəsinin hazırlanma tarixi onu təsdiq edir ki, "müdafiəsizlik vəziyyətindən sui-istifadə" "şəxsin istismara tabe olmaqdan başqa real və məqbul alternativ variantının olmadığı hər hansı vəziyyət" kimi başa düşülməlidir.

**Vahid Ömərov,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# Soğan yeməmisənsə, için niyə göynəyir, Qulu Məhərrəmli?

## Yaxud əlahəzrət faktlar onu bütün çılpaqlığı ilə belə ifşa edir!



***Bu gün yetənə-yetən, yetməyənin arxasınca daş atan Qulu Məhərrəmlinin qara əməlləri barədə çox danışmaq və çox yazmaq olar. Hətta bunu silsilə şəklinə salıb, bir sıra faktları oxucuların, ictimai rəyin diqqətinə çatdırmaq da mümkündür. Şükür Allaha, texnika və informasiya əsridir və zamanında haqqında bəhs elədiyimiz şəxsin ifşasını da etmək bizə elə də çətinliklər yaratmır.***

Məsələn, xatırlatmaq yerinə düşərdi ki, 2007-ci ilin aprelində AzTV-də rəhbərlik etdiyi "Səhər" proqramından öz xahişi ilə istefa verdiyini deyən və kanalda qalaraq, digər layihələr üzərində işləyəcəyini bildirən Q.Məhərrəmlinin indi durub kimlərisə günahkar çıxarmaq cəhdləri belə bir zəmin yaradır ki, əslində onun özü heç də "aydanarı, sudan da duru" deyil, əksinə, nə qədər çox danışırsa, bir o qədər də özünü ifşa edir.

FAKT: "Səhər" proqramına 12 il rəhbərlik etmişəm, indi isə yeni proqramlarla tamaşaçıların qarşısına çıxacağam. Özüm bu vəzifədən çıxmaq istəmişəm və bununla bağlı televiziyanın rəhbərliyinə fikrimi 3-4 ay əvvəl bildirmişəm".

Baxın, bu adam vəzifədən (!) çıxması üçün telekanal rəhbərliyinə hətta 2-4 ay əvvəlcədən (!) məlumat verib. Lakin sonradan layihələri uğursuz olduğu üçün onları reallaşdıra bilməyib və nəticədə, getməli olub. İndi onun bəzi maraqları niyə birdən-birə bu faktları unutmaqla yenidən oyanıb?! Bu sualın cavabını cavab haqqı tanıyaraq, ondan öyrənmək istərdik!

### Türkiyədə hərbi çevriliş cəhdində bulunan Fətullah Gülənə "mübarək insan" deyən Qulu Məhərrəmli onunla təmaslarını niyə xatırlatmır?

Bəlkə Q.Məhərrəmlinin "mübarək insan" adlandırdığı və Türkiyədə dövlətçilik əleyhinə çıxış etiyinə görə, sonradan ABŞ-a qaçıb-gizlənən terrorçuların lideri Fətullah Gülənlə təmaslarını da etiraf etsin? Bir halda ki, Q.Məhərrəmli "Fətullah Gülənlə iki dəfə görüşmüşəm. İlk dəfə 1998-ci ildə Türkiyədə, ikinci dəfə isə 2011-ci ildə ABŞ-da. Amma bunlardan əvvəl 1992-ci ildə də belə bir görüş imkanı yaranmışdı görünür, bu mübarək insanla görüşmək qismətimizdə var imiş..." deyirsə, deməli, məsələ tamamilə aydındır.

### O, vaxtilə AzTV-nin fəaliyyətini belə qiymətləndirmişdi...

Yenə də faktlara əsaslanaraq, 2007-ci ildə "Həftə içi" qəzetinə müsahibə verən Q.Məhərrəmlinin dövlətin media siyasətinə qarşı kirli ittihamlarını atmasını tamamilə alt-üst edən və "AzTV büsbütün yeniləşir" başlıqlı müsahibəsini təqdim edirik. Belə ki, "AzTV-də gedən prosesləri necə qiymətləndirirsiniz?" sualına Q.Məhərrəmli belə cavab vermişdi: "Mübaliğəsiz deyim ki, bu gün AzTV-də təkcə texnika və texnologiya yeniləşmir, efirin siması, dizaynı, ritmi dəyişir, ekrana yeni verilişlər, yeni sifətlər gəlir. Yəni bütövlükdə, istehsalat sistemi və münasibətlər dəyişir..."

O cümlədən, "TV plyus" dərgisinin 2007-ci il avqust sayında Q.Məhərrəmli yazmışdı: "Televiziyada 29-cu ildir ki, çalışıram və mən indiyədək burada bu miqyasda yeniləşmə aparılmasının şahidi olmamışam". Beləliklə, Q.Məhərrəmlinin vaxtilə çörək yediyi qazana tüpürməsi arxasında kirli maraqların dayanması faktı var və bu gün də mövcuddur. Onu guya ki, müdafiə edən destruktiv xarakterli siyasi müxalifət isə bu kimi məsələlərin üzərində özünə xas olan teatral səhnə dekorasiyaları qurmaqda davam edir. Əgər bu gün onun hədəfində "SƏS" qəzeti və dövlətdən maliyyə dəstəyi alan digər mətbuat qurumları varsa, deməli, o, növbəti sifarişi həyata keçirməyə başlayıb. Belə fərdlərə əqidəsini dəyişənlə yanaşı, həm də reneqat deyilir...

### "O, tabeliyində olan jurnalistlərin və digər əməkdaşların müəllif və digər fundamental hüquqlarını kobudcasına tapdalayan bir zavallıdır"

Azərbaycanda çalışan kifayət qədər televiziyaçılar, teleşünaslar var ki, Q.Məhərrəmlinin zamanında plagiatlıqla məşğul olduğunu deyiblər. Onlardan biri də tanınmış jurnalist-publisist Rauf Rəcəbovdur. Onun vaxtilə (2016-cı ildə) Q.Məhərrəmli haqqında irəli sürdüyü fikirləri də kifayət qədər maraq doğurur. Ondan bəzi sitatları gətirib, oxucularımıza xatırladırıq: "Bu "ağıldan bəla araşdırmaçı" getdiyi ölkələrdə aldığı və ya əldə etdiyi kitabları AzTV-nın əməkdaşı Salar Aslanova tərcümə etdirərdi. Sonra Q.Məhərrəmli həmin hissələri öz beyninin məhsulu kimi kitablarına daxil edirdi. Burada söhbət iqtibasdan və yaxud istinadlardan getmir. Q.Məhərrəmli başqalarının əqli mülkiyyətinə əməlli-başlı "sahiblənməyi" artıq "şakərə" çevirmişdi. Hətta onunla səfərdə olan həmkarlarından biri "kitabından Tsvekin iyi gəlir" sözünü Qulunun üzünə söyləyəndə, o, bu ifşanı malalamağa çalışmışdı. AzTV sədrinin keçmiş müavini Vaqif Ağayevin danışdığı əhvalat isə bir çoxlarının yaxşı xatirindədir. Bir dəfə V.Ağayevdən televiziya terminlərinə dair kitab alan Qulu bir müddət sonra onu geri qaytarır. Amma kitabın 20 səhifəsi cırılmış halda... Sonradan Qulunun nəşr olunmuş yeni kitabı V.Ağayevə təqdim olunanda, sədr müavini plagiatlığın şahidi olduğunu deyirdi".

Həmkarımız daha sonra yazmışdı ki, Q.Məhərrəmliyə artıq "YETƏR!" deməyin zamanı çatıb: "O özü haqqında "demokratik ruhlu", "müstəqil şəxs" imici yaratmağa çalışsa da, onu yaxından tanıyanlar bunun tam tərsinə olduğunu çox gözəl bilirlər. O, tabeliyində olan jurnalistlərin və digər əməkdaşların müəllif və digər fundamental hüquqlarını kobudcasına tapdalayan bir zavallıdır. Bir sözlə, zəifin qənimi, güclünün kiçiyidir. Əgər beynəlxalq media təşkilatlarında və hüquq müdafiəsi təşkilatlarında bilsələr ki, Q.Məhərrəmli öz avtomobilini rejissoruna yuduzdurur, bir telejurnalistin ərsəyə gətirdiyi verilişi onun əlindən alıb, mahiyyətindən xəbəri olmayan "adamlarına" verir, işçisini mənəvi işgəncələrə və mənəvi terrora məruz qoyurdu, yəqin ki, beynəlxalq ekspertlər onunla bir sırada dayanmağı özlərinə təhqir hesab edərlər".

Beləliklə, kifayət qədər faktlara əsaslanan R.Rəcəbov digər faktları da ortaya çıxarıb: "Onun özündən "dürüst insan" obrazı yaratmağa, AzTV-ni "kriminallaşan" bir qurum kimi təqdim etmək cəhdi isə əsl cəfəngiyyatdır. Biz kiçik məmləkətdə yaşayırıq və kimin-kim olduğunu çox gözəl bilirik. İndiyə qədər hansısa jurnalist quru maaşla özünə villa tikdirə, avtomobil ala bilibmi? Əlbəttə ki, yox. Amma əmək haqqının və qonorarın o qədər də yüksək olmadığı AzTV-də çalışarkən Q.Məhərrəmlinin Badamdarda 4 mərtəbəli villa tikdirdiyi çox adama bəlli idi. Badamdardakı torpaq sahəsi AzTV əməkdaşlarına paylananda, Qulu da bu fürsətdən bəhrələnmişdi. Hazırda Qulunun həmin villanı sataraq, göydələn binada 2 mənzil aldığı deyilir. İstər torpaq sahəsinə yiyələnəndə, istərsə də xarici avtomobilinin pulunu "Səhər"in reklamları hesabına ödəyəndə, Q.Məhərrəmli bunun jurnalistika peşəsi ilə bir araya sığmadığını heç yadına belə salmamışdı. Görəsən, "ünlü" telejurnalist cavab verə bilərmi ki, qızlarına mənzili hansı pulla alıb?"

Göründüyü kimi, Q.Məhərrəmlinin "yaradıcılığı" kifayət qədər köklü faktlara söykənir və ƏLAHƏZRƏT FAKT qarşısında onun acizliyini, qorxaqlığını, bütün bunlardan doğan və gizlədə bilmədiyi daxili aqressiyasını da anlamaq olar əslində. Atalar demişkən, soğan yeməmisənsə, için niyə göynəyir, Q.Məhərrəmli?

***Rövşən NURƏDDİNOĞLU***

# "Cəmil Həsənlinin fikirləri sərsəmlikdən başqa bir şey deyil"

***"Milli Şura"nın sədri Cəmil Həsənli və AXCP-nin rəhbəri Əli Kərimli yenə də seçkilərlə bağlı qarayaxma kampaniyası aparırlar və seçkilərdə kimin seçiləcəyi barədə münəccimlik edən informasiyalarla çıxış edirlər.***



Bu şəxslərin seçkilərə qatılmadıqları halda seçkilərlə bağlı şər və böhtan səsləndirmələri nədən qaynaqlanır? "Azadlıq Hərəkatçıları" Birliyinin sədri Təhmasib Novruzov bunun səbəbini onların qara xislətlərindən qaynaqlandığını bildirdi: "Pişiyin ağzı ətə çatmayanda, deyər murdardır. Bunlar cəmiyyətdə heç bir nüfuzları olmadığını, seçkilərdə iştirak edəcəkləri təqdirdə, məsuliyyətlərinin qaçılmaz olduğunu bildiklərindən, seçkilərə iştirakdan imtina etməyi qərara aldılar. Bəlkə də onların siyasi fəaliyyətlərində dəfələrlə atmış olduqları bu iştirakdan imtina, hətta "boykot etmək" qərarlarını onların yeganə "ağıllı" taktikası da adlandıra bilərik. Özləri də seçkilərdə heç bir nailiyyət əldə edə bilməyəcəklərini bildikləri halda, seçkilərdə iştirak etmək onların tamamilə siyasi iflasına səbəb ola bilərdi. O zaman siyasi müxalifət adı altında qurmuş olduqları siyasi bizneslərini itirmiş olardılar". T.Novruzovun sözlərinə görə, seçkilərə qatılmayan, iştirakdan imtina edən bir qurumun, onun rəhbəri Cəmil Həsənlinin seçkilərin saxtalaşdırılacağı haqqında fikirlər səsləndirməsi isə sərsəmlikdən başqa bir şey deyil: "Mənim o siyahı adlandırılan söz toplusundan xəbərim var. Diqqət etsəniz, siyahıda o namizədlərin adları qeyd olunub ki, onlar namizəd olduqları dairələrdə kifayət qədər nüfuz sahibləridir və seçilmək şansları da yüksəkdir. "Milli Şura" da, AXCP də həmin dairələrdə hansısa formada araşdırma aparıb və seçilmək şansı olan namizədləri müəyyənləşdirərək, belə bir siyahı tərtib ediblər. Məqsəd aydındır, seçkilərdən sonra cəmiyyətdəki özləri kimi zəif düşüncəli adamları, həm də xaricdəki ağalarını inandırsınlar ki, seçki demokratik keçirilməyib və onların verdikləri "proqnoz" özünü doğrultdu! Belə çirkin, primitiv düşüncə ilə yaşayan bu adamların könlündən hələ hakimiyyətə gəlmək, ölkəni idarə etmək də keçir. Məncə, belələrinin bu formada primitiv siyasi düşüncəyə əsaslanan hay-küyünə məhəl qoyulmamalı, ölkə başçısının da qətiyyəti ilə nəzərdə tutulan demokratik və şəffaf seçkilərə nail olmaq üçün fəaliyyətimizi daha uğurla davam etdirməliyik".

***GÜLYANƏ***

# Uşaq alveri anlayışı

***İnsan alverinin beynəlxalq səviyyədə qəbul edilmiş anlayışı "uşaq qurbanları"nın müəyyənləşdirilməsinə və müdafiə olunmasına imkan yaratmaq və insan alverçilərinin təqib olunmasını təmin etmək üçün vacibdir. BMT-nin İnsan Alverinə dair Protokolu beynəlxalq səviyyədə qəbul olunmuş anlayışı təmin etmişdir və 3-cü maddədə insan alverinin anlayışı verilir. Protokola əsasən, əməlin ümumi məqsədi uşağın istismarı olduğu halda uşağın razılığı və ya bu razılığa nail olmaq üçün vasitələr nəzərə alınmır.***

3-cü maddədə deyilir:

(C) Uşağın istismar edilməsi məqsədilə cəlb edilməsi, daşınması, təhvil verilməsi, gizlədilməsi və ya alınması, hətta bu maddənin (a) yarımbəndində göstərilən hər hansı bir təsir vasitələrindən istifadə edilmədiyi halda belə insan alveri hesab edilir; (d) "Uşaq" dedikdə, on səkkiz yaşına çatmamış istənilən şəxs başa düşülür.

Öhdəlik ünsürlərin özlərini deyil, tərkib ünsürlərinin birləşməsi kimi insan alverini cinayət qanununa daxil etməkdir. Buna görə də, hər hansı sadalanan fəaliyyət və vasitələri birləşdirən və sadalanan məqsədlərdən hər hansı biri üçün həyata keçirilən istənilən davranış insan alveri kimi cinayət qanununa daxil edilməlidir. İnsan alveri cinayəti davamlı əməl ola və müəyyən bir vaxt ərzində baş verə bilər və yalnız çoxsaylı iştirakçılardan ibarət olmaya bilər. Ardıcıl olmaqdan əlavə, insan alverinin ünsürləri bir-birilə eyni vaxtda ola və ya üst-üstə düşə bilər.

Bu anlayışın mühüm aspekti insan alverinin müəyyən vaxtda baş verən tək bir hərəkət əvəzinə, bir-birilə əlaqəli olan bir sıra hərəkətlərdən ibarət proses kimi başa düşülməli olmasıdır. Bir dəfə nəzarət altına alındıqdan sonra qurbanlar adətən onların xidmətləri üçün bazarın olduğu, çox vaxtı onların kömək üçün müraciət etmələrinə imkan yaradan dili bilmədikləri və digər mühüm məlumatlara malik olmadıqları yerə aparılırlar. Bu hərəkətlər bir dövlətin sərhədləri daxilində baş verə bildiyi kimi, onlar, həmçinin bir dövlətdə cəlb etməklə və qurbanı qəbul etmənin və istismarın başqa bir dövlətdə baş verməsi ilə sərhədləri aşa bilər. Beynəlxalq sərhədi aşıb-aşmamasından asılı olmayaraq, şəxsi istismar etmək niyyəti bütün prosesin məğzini təşkil edir.

İnsan alverinin ünsürləri aşağıdakılardır:

Birinci mərhələ şəxsin insan alverçisi tərəfindən potensial qurban kimi hədəf seçildiyi hərəkət və ya cəlbetmədir. Qurban uşaq olmadıqda və vasitələrin nəzərə alınmaması tətbiq edilmədikdə, qurbanı insan alveri prosesinə cəlb edərkən yuxarıda göstərilən vasitələrdən hər hansı birindən istifadə olunacaqdır.

İkinci mərhələ potensial qurbanın aparılmasıdır. Aparılma ölkə hüdudlarında və ya sərhədləri aşmaqla ola bilər və sərhədlər qanuni və ya qeyri-qanuni yolla keçilə bilər.

Yekun mərhələ qurbanın istismarıdır.

Beynəlxalq hüquqi sənədlərə əsasən, insan alveri potensial qurbanın insan alverçisi tərəfindən istismar məqsədilə cəlb edilməsidir. Belə istismar ya sərhədi aşmaqla ya da bir dövlətin hüdudları daxilində baş verə bilər və cəlbetmə də ya kənardan ya da dövlət daxilində baş verə bilər.

Koblenz Regional Məhkəməsi birinci instansiyada, 9 may 2007-ci il tarixdə, müttəhimi, Almaniya Cinayət Məcəlləsinin 232-ci maddəsinin 3, 4-cü hissələrinə əsasən, cinsi istismar məqsədilə insan alveri əməlini törətməyə cəhd göstərməkdə təqsirli bilmişdir. Məhkəmə izah vermişdir ki, əməlin cinsi istismar məqsədilə insan alveri cinayəti hesab edilməsi üçün bir şəxsin digərini fahişəliyə məcbur etmək üçün onun üzərində fiziki nəzarəti ələ keçirməsi kifayət edir. Qurbanın artıq fahişəliyə başlamış olması və ya bunu etməsi mütləq şəkildə tələb olunmur.

Birinci instansiyada əməlin bu ünsürü yanlış qiymətləndirilmiş və müttəhim tək cinsi istismar məqsədilə insan alverinə cəhd etməyə görə məhkum olunmuşdur. Lakin insan alveri, cinayətkar davranışdır və tək nəticəsi cinayət olan əməl deyil. Buna görə də, hərəkətlər, qurbanın və ya qurbanların istismarı məqsədilə tələb olunan vasitələrlə törədildiyi halda, cinayətin tamamlanmış hesab edilməsi üçün arzu olunan nəticənin, faktiki istismarın olması vacib deyildir.

UNODC insan alverinə dair presedent hüququ üzrə məlumat bazası: BGH StR 90/08: Almaniyanın İnsan Hüquqları İnstitutu tərəfindən təmin olunan hüquqi məlumat bazası. Vasitələr bu əməlləri törədənlər tərəfindən potensial qurbanları cəlb etmək üçün istifadə olunan metodlardır. BMT-nin insan alverinə dair protokolunda sadalanan vasitələr insan alverinin beynəlxalq hüquqi anlayışının fərqli və mühüm hissəsi kimi qəbul edilmişdir. Onlar BMT-nin İnsan Alverinə dair Protokolundan sonra qəbul edilərək insan alverinin anlayışını ümumiləşdirən üç mühüm müqavilədə, habelə siyasət sənədlərinə və təfsirlə bağlı mətnlərdə toxunulmamış qalmışdır. İnsan alverinin vasitələrinin anlayışı aşağıdakı kimidir:

Güc; - burada güc tətbiq etməklə hədələmə yaxud gücdən və ya məcburetmənin digər formalarından istifadə nəzərdə tutulur. Bu hədələmə ya qurbana qarşı, ya da onun ailə üzvünə qarşı ola bilər.

UNODC-nin İnsan Alverinə Qarşı Nümunəvi Qanununda məcburetmənin anlayışı aşağıdakı kimi verilir:

5 (1) (e) "Məcburetmə" dedikdə, aşağıdakılar da daxil olmaqla, lakin onlarla məhdudlaşmayaraq, güc tətbiqetmə və ya hədələmə və gücdən və ya hədələmədən qeyri-zorakı və ya psixoloji şəkildə istifadənin bəzi formaları nəzərdə tutulur;

(I) Hər hansı bir şəxsə zərər vurmaqla və ya fiziki məhdudiyyət qoymaqla hədələmə halları;

(II) İnsanı onun hər hansı bir hərəkəti etməməsinin hər hansı bir şəxsə ciddi zərər vurmaqla nəticələnəcəyinə və ona fiziki məhdudiyyətin qoyulmasına gətirib çıxaracağına inandırmaq üçün nəzərdə tutulan hər hansı bir hiylə, plan və ya model; (III) Şəxsin hüquqi statusu ilə bağlı sui-istifadə və ya hər hansı bir hədələmə halı; (IV) Psixoloji təsir; Məcburetmə qeyri-zorakı və ya psixoloji gücün bəzi formaları da daxil olmaqla güc tətbiqetmə və ya tətbiq etməklə hədələmə kimi başa düşülür. Lakin məhkəmələr məcburetmənin dolayı formaları ilə mübarizə aparırlar, "Onlar məcburetmənin psixoloji bir məsələ olub-olmadığını, ölçülməli çox subyektiv bir məsələ olub-olmadığını və işçinin "fiziki divarlar və zəncirlər" əvəzinə "əqli əsirliklə" nəyəsə məcbur edilib-edilə bilinmədiyini soruşurlar". Bir sıra dövlətlərdə məhkəmələr məcburetmənin anlayışını nəzərdən keçirmiş və belə nəticəyə gəlmişlər ki, o, tək fiziki zorakılıq demək deyildir. Onlar Amerika Birləşmiş Ştatlarının Bradleyə qarşı çıxış etdiyi (aşağıda qeyd olunur) işdə qeyd olunduğu kimi "ciddi zərər" anlayışına oxşar ifadəni öz milli qanunvericiliklərinə daxil etmişlər.

"Ciddi Zərər" anlayışına zərərin həm fiziki, həm də qeyri-fiziki növləri aiddir. Buna görə də, ciddi zərərvurma hədəsinə, istənilən hədələr; hər hansı bir uyğun şəxsi eyni vəziyyətdə işi görməyə və ya xidmətlər göstərməyə yaxud onları davam etdirməyə vadar etmək və ya məcbur etmək üçün bütün kənar şərtlər altında kifayət edən, fiziki və ya qeyri-fiziki, hər hansı fəsadlarla bağlı hədələr aiddir.

Yeni qanunu təfsir edərkən, konfransın hesabatında qeyd edilmişdir ki, "ciddi zərər" ifadəsinin işlədilməsində məqsəd tək fiziki zorakılığı deyil, həm də məcburetmənin daha çox nəzərə çarpmayan psixoloji metodlarını da əhatə etməkdir; "insan alverçiləri tərəfindən üçüncü şəxslərə zərər vurmaqla hədələmə, zorakılıq və ya xəsarət yetirmə olmadan qurbanları saxlama və ya açıq zorakılıqdan fərqli digər vasitələrlə ağır fəsadların törədiləcəyi ilə hədələmə halları".

Müttəhimlər apelyasiya şikayət vermişlər və apelyasiya məhkəməsi aşağıdakıları müəyyən etmişdir:

Beləliklə, müvafiq işdə, biz belə düşünürük ki, andlıları təlimatlandırarkən, məhkəmədən, qanunsuz hədələri yaxud məcburetməni mənfi, lakin qanuni fəsadlar barədə icazə verilə bilən xəbərdarlıqlardan fərqləndirmək tələb olunur".

BƏT-in insan alveri ilə bağlı müəyyənləşdirdiyi əməli indikatorlar 63 əmək və ya cinsi istismar məqsədilə insan alverinin yaşlı və uşaq qurbanları üçün dörd əməli indikatordan ibarətdir. İndikatorlar, aldatma və məcburetmə daxil olmaqla, insan alverinin bəzi ölçülərinə uyğundur və onların necə təfsir olunmasına istiqamət verir. Onlar insan alverinin potensial qurbanlarını müəyyənləşdirmək və istiqamət vermək üçün cinayət mühakimə sistemində prokurorlar və hakimlər tərəfindən istifadə edilməli əməli indiktorlarıdır.

BƏT-in yaşlı insanların cinsi istismarı ilə bağlı müəyyənləşdirdiyi əməli indikatorlar Aldatma yolu ilə cəlbetmə indikatorları

Güclü indikator

X İşin və ya yerin mahiyyəti barədə aldanılma.

Orta indikatorlar

X Fahişəliyin şərtləri barədə aldanılma;

X Əmək müqaviləsinin məzmunu və ya qanuniliyi barədə aldanılma;

X Ailənin yenidən birləşəcəyi barədə aldanılma;

X Mənzil və yaşayış şəraiti barədə aldanılma;

X Hüquqi sənədləşmə və ya qanuni miqrant statusunun alınması barədə aldanılma;

X Səyahət və seçim şərtləri barədə aldanılma;

X Əmək haqları / qazanc barədə aldanılma;

X Nikah və ya övladlığa götürmə vədləri ilə aldanılma. Zəif indikator

X Təhsil imkanlarından yararlanma barədə aldanılma. Məcburi cəlbetmə indikatorları Güclü indikatorlar

X Oğurlanma, məcburi nikah, məcburi övladlığa götürülmə və ya qurbanı satma;

X Borc asılılığı;

X Qurbana qarşı zorakılıqla hədələmələr;

X Qurbanlara qarşı zorakılıq.

Orta indikatorlar

X Sənədlərin alınması;

X Təcridetmə, azadlığı məhdudlaşdırma və ya nəzarət altına alma;

X Orqanlara xəbər verməklə hədələmə;

X Ailəyə, icmaya və ya insanlara xəbər verməklə hədələmələr;

X Ailəyə qarşı zorakılıq (hədələmələr və ya tətbiq etmə);

X Pulu əlindən alma.

Təyinat yerində məcburetmə indikatorları

Güclü indikatorlar

X Sənədlərin alınması;

X Borc asılılığı;

X Məcburi tapşırıqlar və ya müştərilər;

X Təcridetmə, azadlığı məhdudlaşdırma və ya nəzarət altına alma;

X Qurbana qarşı zorakılıqla hədələmələr;

X Qurbanlara qarşı zorakılıq.

Orta indikatorlar

X Qanunsuz / cinayətkar əməlləri törətməyə məcbur edilmə;

X Həmyaşıdlara qarşı müəyyən hərəkətlər etməyə məcbur edilmə;

X Orqanlara, ailəyə və sairəyə yalan danışmağa məcbur edilmə;

X Orqanlara xəbər verməklə hədələmə;

X Daha pis iş şəraiti yaratmaqla hədələmə;

X Ailəyə, icmaya və ya insanlara xəbər verməklə hədələmələr;

X Güclü təsir altında olma;

X Ailəyə qarşı zorakılıq (hədələmələr və ya tətbiq etmə);

X Məvacibləri əlindən alma.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# SƏS

8 fevral

Son səhifə

## İsraildə 3 minlik tarixi olan qədim Misir artifaktı tapılıb



İsrailin Hayfa şəhərinin yaxınlığında 3 min ildən çox yaşı olan qədim Misir artifaktı tapılıb. "Egypttoday" portalının yazdığına görə, bu barədə İsrail KİV-də məlumat yayılıb. Arxeoloqlar bildiriblər ki, daş kitabənin üzərində qədim Misir ilahəsi olan Seşat haqqında yazılar və rəsmlər var. Artifaktı Hayfa yaxınlığında üzən bir israilli baytar aşkar edib. Daş kitabənin tədqiqatı zamanı məlum olub ki, bu qiymətli artifakt eramızdan əvvəl XV əsrə aiddir. Həmin dövrdə qədim Misirdə on səkkizinci sülalənin hökmranlığı olub.

Arxeoloqların ehtimalına görə, tapılan daş kitabə qədim Misir fironlarının sarayına daxil olan məbəddə olub. Onlar artifaktın üzərindəki yazıların və rəsmlərin suyun altında qalmasına rəğmən keyfiyyətini qoruyub saxlamasından heyrətlərini də gizlətməyiblər. Güman edilir ki, daş kitabə firon III Tutmosun hərbi səfəri zamanı istifadə olunan və batan gəmidə olub.

## "Forbes" Yaxın Şərqin 100 ən yaxşı işgüzar qadınını açıqladı



***Nüfuzlu "Forbes" jurnalı 2020-ci ildə Yaxın Şərqin 100 ən yaxşı işgüzar qadınının adını açıqlayıb. Bu regionda zərif cinsin ən varlı nümayəndələri 28 sektoru təmsil edən 23 ölkənin vətəndaşlarıdır.***

Siyahıya Birləşmiş Ərəb Əmirliklərinin 27 şirkətdən ibarət olan "İsa Saleh" qrupunun icraçı direktoru Raya İsa Əl Qurq, "Samba Financial Group" (Səudiyyə Ərəbistanı) korporasiyasının sahibi Rania Naşar, "Tədavül" şirkətinin rəhbəri Sara Əl Suhami və "Saudi British Bank"ın icraçı direktoru Lübna Olayan başçılıq edirlər. "Forbes"in saytında yer alan məlumatda deyilir ki, Yaxın Şərqin ən varlı işgüzar qadınların arasında 9 Misir, 8 Livan, səkkiz Oman işgüzar qadını, habelə ərəb olmayan və Yaxın Şərqdə biznes fəaliyyəti ilə məşğul olan amerikalı qadınlar var.

## Uxanda 200-dən çox sahibsiz ev heyvanı xilas edilib



Uxanın heyvanları müdafiə təşkilatı şəhərdə 200-dən çox sahibsiz qalmış ev heyvanını xilas edib. "Nat-geo.ru" saytının yazdığına görə, onların sahibləri Uxanı yanvarın 23-dən əvvəl tərk ediblər və macal tapıb karantindən əvvəl evlərinə dönə bilməyiblər. Nəticədə heyvanlar qapısı bağlı mənzillərdə qalıblar. Heyvanları müdafiə təşkilatının başçısı deyib: "Əgər biz onlara öz köməyimizi təklif etməsəydik, ev heyvanları sahibləri evə dönənə qədər tələf olardı. Heyvanlara kömək etmək bizim borcumuzdur". Heyvan sahibləri qapı qıfıllarının kodlarını təşkilatın əməkdaşlarına təqdim ediblər, lazım gəldikdə qapıların açdırmaq üçün haqq ödəyiblər.

## Klopp Qvardiolanı "taxt"dan saldı



Yurgen Klopp yanvar ayı üçün İngiltərə Premyer Liqasının ən yaxşı məşqçisi seçilib. Bu haqda Premyer Liqanın rəsmi saytı məlumat yayıb. O, səsvermədə Xosep Qvardiola ("Mançester Siti") , Ralf Hazenhyuttl ("Sauthempton") və Neycel Pirsonu ("Utford") qabaqlayıb. Bu, Kloppun hazırkı mövsümdə beşinci mükafatıdır. Alman mütəxəssis bu uğuru ilə indiyədək sözügedən mükafatı 4 dəfə qazanan Xosep Qvardiolanın rekordunu qıraraq birinciliyə yüksəlib.

## Tovuzda bibisinin evindən oğurluq edən şəxs tutulub



Tovuz rayonunun Xatınlı kənd sakini olan qadın fevralın 4-də rayon polis şöbəsinə müraciət edərək evindən qızıl-zinət əşyalarının və nağd pulun oğurlanması barədə məlumat verib. Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin Gəncə regional qrupundan AZƏRTAC-a bildiriblər ki, məlumatla əlaqədar Tovuz Rayon Polis Şöbəsinin əməkdaşları dərhal həmin ünvana gəlib, müvafiq tədbirlər həyata keçiriblər. Məlum olub ki, vətəndaşın evindən 11 min manat və 200 ABŞ dolları məbləğində pul, 7 min manat dəyərində qızıl-zinət əşyaları oğurlanıb. Cinayəti törətməkdə şübhəli bilinən, əvvəllər məhkum olunmuş Əli Rüstəmov həyata keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində saxlanılaraq maddi sübutlarla birlikdə istintaqa təhvil verilib. Faktla bağlı təhqiqat aparılır.

## Misirdə yol qəzası olub, 14 nəfər ölüb



Misirin Qərbi Asuan - Qahirə magistral avtomobil yolunda bir mikroavtobusun yük maşını ilə toqquşması nəticəsində 14 sərnişin ölüb. "Egyptindependent" nəşrinin yazdığına görə, qəzada yaralanan bir nəfər yaxınlıqdakı xəstəxanaya çatdırılıb. Misirin yol polisi qəzanın səbəbinin sürət həddinin aşılması olduğunu bildirib. Asuan vilayət prokurorluğu insidentlə bağlı təhqiqat aparır.

## Xərçəng və qocalıq əleyhinə vasitə tapıldı



Kaliforniyada yerləşən Berkeley Universitetinin alimləri, orqanizmdə xroniki iltihaba cavabdeh olan immun mexanizmini idarə edən bir molekulyar keçid tapıblar. SİA xarici mətbuata istinadən xəbər verir ki, bu barədə Eurek Alert mətbuat açıqlamasında bildirilir.

Elmi tədqiqatın nəticələri Alsqeymer və Parkinson kimi yaşla əlaqəli xəstəliklərə qarşı mübarizə aparan vasitələrin inkişafına da kömək edəcəkdir.

## Elan

**Hörmətli abunəçilər!**

"Azerfon" MMC ilə "BBTV Kommunikeyşn" MMC arasında bağlanmış müvafiq agent müqaviləsinə xitam verildiyindən 15.02.2020 -ci il tarixindən abunəçilərlə radio-televiziya kanallarının yayımlanması xidmətlərinin göstərilməsinə dair bağlanmış abunə müqavilələrində "Azerfon" MMC-nin təqdim etdiyi bütün xidmətlər birbaşa "BBTV Kommunikeyşn" MMC tərəfindən göstəriləcəkdir. Kanalların siyahısı və paketin qiyməti dəyişməz olaraq qalır. Xidmətin dəyərinin ödənilməsi zamanı "Nar TV" loqosu əvəzinə "BBTV" loqosunu seçməyinizi xahiş edirik.

***Baş redaktor:***

**Bəhruz Quliyev**

***Baş redaktorun müavinləri:***

**Valeh Məhərrəmli**

**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**

**Şəhadətnamə:№ 022492**

**http://www.ses-news.az**

**http://www.sesqazeti.az**

**E-mail: ses@sia.az**

**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.

"Azərbaycan" nəşriyyatında çap olunur

*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4600**